QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 041 (5513) 2 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Azərbaycan dövləti heç vaxt işğalla barışmayacaq

*"Cocuq Mərcanlının, qısa müddət ərzində bərpası onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz təmir-bərpa işlərini aparacağıq"*



Səh 2


Elm və təhsil sahəsinə dövlət qayğısı gücləndirilir



4

Ruhaninin Azərbaycana səfərinin proqramı açıqlandı



9

Azərbaycanlı gənclər Avropa Parlamentindəki erməni təbliğat maşınına daha bir zərbə vurdular



3

"L'Opinione" qəzeti: Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir



5

Seymur Orucov: "Gənclər üçün maarifləndirici tədbirlər həyata keçirilib"



5

Nurqali Yusipbay: "Azərbaycanın təcrübəsi seçkilərin demokratik və ədalətli keçirilməsi üçün münbit şərait yaradır"



6

7

"Yeni Agentlik kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynayacaq"



8

Tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması istiqamətində tədbirlər keçirilib



11

Kazimirovun KVAZİBARIŞIĞI - erməni işğalçıları üçün "müqəddəs yazı"



# Azərbaycan dövləti heç vaxt işğalla barışmayacaq

*"Cocuq Mərcanlının, qısa müddət ərzində bərpası onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz təmir-bərpa işlərini aparacağıq"*



***Məlum olduğu kimi, 2017-ci il müstəqil Azərbaycan dövlətinin tarixində bir sıra möhtəşəm hadisələrlə iz qoydu. Prezident İlham Əliyevin apardığı siyasətin nə qədər doğru olduğu ötən il bir daha təsdiqləndi. Azərbaycan, həyatın bütün sahələrində yeni nailiyyətlərə imza ataraq, qarşıya qoyulan hədəflərə doğru inamla irəlilədi. İstər siyasi, istərsə də sosial-iqtisadi uğurlarla zəngin olan 2017-ci il həm də illərdir yurd, torpaq həsrəti ilə yaşayan soydaşlarımızın qəlbindəki ümid çırağının yenidən alışdığı, Qarabağa, doğma yurda qayıdışın başlandığı il oldu. Azərbaycan dövləti ötən ilin iyun ayından Böyük Qayıdış planının icrasına başladı. Cəbrayıl rayonunun işğaldan azad olunan Cocuq Mərcanlı kəndi məcburi köçkünlərin öz yurdlarına qayıtdıqları ilk yaşayış məskəni kimi tarixə düşdü.***

İllərdir xalqımızın gözü Qarabağa gedən yoldadır. Hər kəs doğma torpaqlara qayıdacağımız günü səbirsizliklə gözləyir. 2016-cı ilin aprel döyüşlərindən sonra böyük qələbənin bizə nə qədər yaxın olduğuna bir daha əmin olduq. Çünki Prezident, Ali Baş Komandan İlham Əliyevin cəsarətli və qətiyyətli mövqeyi ortadadır. Həm aprel döyüşlərində ordumuzun göstərdiyi şücaət, həm də Cənab Prezidentin prinsipial mövqeyi hər kəsdə əminlik yaradır ki, böyük qələbə yaxındadır. Beləliklə, şanlı aprel zəfərindən sonra Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpası üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, ilkin olaraq 4 milyon manat, sonra isə kəndə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncama uyğun olaraq, 4,3 milyon manat vəsait ayırdı.

Sevincinin həddi-hüdudu olmayan 250-dən çox Cocuq Mərcanlı sakini doğma kəndlərinə qayıtmaq üçün ərizə ilə müraciət etdi. Bütün bunlar isə, bir milyondan çox məcburi köçkündə öz ata-baba yurdlarına dönəcəklərinə ümid və inam hissini gücləndirdi.

Cəmi bir neçə ay işğal altında qalan və ermənilər tərəfindən darmadağın edilərək, xarabalığa çevrilən Cocuq Mərcanlı kəndində tikinti-quruculuq işlərinin aparılması üçün tapşırıq verildi. Ötən il martın 22-dən başlayan tikinti işləri mayın 20-də başa çatdırıldı. Cəmi iki ayda, plana uyğun olaraq, ərazidə ilkin mərhələdə 50 (ümumi sahəsi 3850 kvadratmetr olan mənzillərin 20 ikiotaqlı, 25 üçotaqlı və 5 dördotaqlı) fərdi yaşayış evi, 96 şagird yerlik ümumtəhsil məktəbi, qaz, elektrik, içməli su xətləri, ümumi uzunluğu 9 kilometr və eni 12 metr olan avtomobil yolu çəkildi. Strateji əhəmiyyəti ilə seçilən bu yolun inşası zamanı zəruri olan yerlərdə su keçidləri tikildi və uzunluğu 24 metr olan ikiaşırımlı mövcud körpü bərpa edildi. Yol üzərində 76 yol nişanı və məlumatverici lövhələr quraşdırıldı, piyada zolaqları, yol-cizgi və yolgöstərici xətləri çəkildi.

Subartezian quyusu qazıldı, 100 kubmetrlik su anbarı inşa edildi. Yeni komplekt transformator məntəqəsi, həmçinin, subartezian quyusuna xidmət edəcək transformator quraşdırıldı. Azərişıq" ASC tərəfindən 35/10 kilovatlıq böyük yarımstansiya inşa olundu. "Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyi Cəbrayıl rayonunun ləğv olunmuş avtomobil yolları idarəsini bu kənddə bərpa etdi. Daxili İşlər Nazirliyi polis idarəsi üçün, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bütün rabitə-kommunikasiya xidməti üçün bina tikdi. Sakinlərə operativ və keyfiyyətli xidmət göstərilməsi məqsədilə kənddə "Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC-nin Cəbrayıl Sukanal İdarəsinin Cocuq Mərcanlı sahəsi yaradıldı.

"Aztelekom" tərəfindən kəndə 10 kilometr məsafədən optik kabel çəkildi, 64 nömrə tutumlu elektron Avtomat Telefon Stansiyası, kənd daxilində telefon kabellərin yeraltı çəkilişi üçün kabel-kanalizasiya qurğuları quraşdırıldı, 1200 metrədək məsafədə daxili şəbəkə quruldu. Cocuq Mərcanlıda inşa edilən 50 yeni evin hamısı, həmçinin, məktəb telefonlaşdırıldı və internetlə təmin edildi.

İyunun 14-də, Qurtuluş Günü ərəfəsində Prezident İlham Əliyevin Cocuq Mərcanlı kəndinə səfəri ilə Böyük Qayıdış Konsepsiyasına start verildiyi gün kimi tariximizə yazıldı. Elə dövlət başçısı da bu tarixi günü belə qiymətləndirdi: "Cocuq Mərcanlı kəndinin bərpası, doğrudan da, tarixi hadisədir. İndi bütün Azərbaycan Cocuq Mərcanlı kəndinin tarixini bilir, bütün dünya Cocuq Mərcanlını tanıyır. Bu kəndin Azərbaycan tarixində xüsusi yeri vardır". Dövlət başçısı Cocuq Mərcanlıya səfəri zamanı işlərin bununla bitmədiyini vurğulayaraq, növbəti mərhələdə kənddə təqribən 100 əlavə ev, tibb məntəqəsinin tikiləcəyini və iş yerlərinin yaradılacağı ilə bağlı əlavə tədbirlərin görüləcəyini söylədi. İyunun 15-də Prezident İlham Əliyev daha bir Sərəncam imzalayaraq, Cocuq Mərcanlı kəndində tikinti-bərpa və abadlıq-quruculuq işlərinin davam etdirilməsi, o cümlədən, 100 fərdi yaşayış evinin, uşaq bağçasının, həkim məntəqəsinin, digər zəruri sosial və infrastruktur obyektlərinin tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 9 milyon manat vəsait ayırdı. Beləliklə, kənddə tikinti-quruculuq işlərinin ikinci mərhələsi başlanıldı.

Sentyabrın 13-də isə, dövlət başçısı "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi tədbirləri haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, Cocuq Mərcanlı kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 1,5 milyon manat ayrıldı.

17 hektar ərazidə 100 fərdi yaşayış (14-ü birotaqlı, 38-i ikiotaqlı, 36-sı üçotaqlı, 12-si dördotaqlı) evinin, 50 yerlik uşaq bağçasının, tibb məntəqəsi və klub-icma mərkəzi üçün binaların, poçt binasının və digər zəruri infrastruktur obyektlərinin tikintisi aparıldı. Hər bir ailə üçün 10 hektar torpaq sahəsi ayrıldı. Qəsəbədaxili yollara asfalt örtük salındı, elektrik, su və qaz xətləri çəkildi. İlin sonunda bütün tikinti işləri başa çatdı. İkinci mərhələdə fərdi yaşayış evlərindən savayı Klub-İcma Mərkəzi, 50 yerlik uşaq bağçası inşa olunub. Klub-İcma Mərkəzinin binası 150 yerlik geniş zaldan, kitabxana və digər otaqlardan ibarətdir. Bina lazımi inventar və avadanlıqlarla təmin edilib. Müasir istilik sistemi və zəruri avadanlıqla təchiz olunan bağçada isə iki qrup fəaliyyət göstərəcək.

Əlbəttə ki, bu gün Azərbaycan Ordusunun aprel qələbəsindən sonra Cəbrayıl, Füzuli rayonlarında vaxtilə işğal altında olmuş torpaqlarda və Lələtəpədə Azərbaycan bayrağı dalğalanır. Cocuq Mərcanlı məscidinin minarəsindən verilən azan səsi həm şəhidlərimizin ölməz ruhunu şad edir, həm də düşmənin canına vəlvələ salır. Nazirlər Kabinetinin son iclasında Prezident İlham Əliyev bunu belə qiymətləndirib: "Azərbaycan dövləti Cocuq Mərcanlının timsalında bir daha göstərib ki, heç vaxt işğalla barışmayacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və bütün köçkünlər bir arzu ilə yaşayırlar ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Cocuq Mərcanlının, qısa müddət ərzində bərpası, yenidən qurulması onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz, qısa müddət ərzində, bütün təmir-bərpa işlərini aparacağıq, şəhərləri, kəndləri yenidən quracağıq və bu gün ağır vəziyyətdə, dağılmış vəziyyətdə olan şəhər və kəndlərimizə tezliklə həyat qayıdacaq".

***"Səs" Analitik Qrupu***

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 998-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 997-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Sosial təminat müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Naftalan Şəhər Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 992-VQD nömrəli Qanununun tətbiqi və "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 85 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1000-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 994-VQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

# Azərbaycanlı diplomat BMT-nin İnsan Hüquqları Şurasının sessiyasında Ermənistanın xarici işlər nazirinə cavab verib



***Azərbaycan Respublikasının Cenevrədə yerləşən beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin birinci katibi Yalçın Rəfiyev BMT-nin İnsan Hüquqları Şurasında Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın Yüksək Səviyyəli Seqmentdə çıxışına cavab hüququndan istifadə edib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.***

Yalçın Rəfiyev deyib: "Yüksək Səviyyəli Seqmentin başlanğıcından etibarən biz müxtəlif dövlətlərin yüksəkvəzifəli nümayəndələri tərəfindən öz ölkələrində insan hüquqlarının qorunması sahəsində əldə edilən nailiyyətlər barədə həvəslə danışmalarını izləyirik. Ermənistanın xarici işlər naziri isə dünənki çıxışının əksər hissəsini öz ölkəsi əvəzinə Azərbaycana həsr etmişdi. Buradan belə bir qənaətə gəlmək mümkündür ki, Ermənistan naziri öz ölkəsində insan hüquqlarının təşviqi və qorunması sahəsində Şura ilə bölüşməyə dəyər bir yenilik tapa bilməyib. Bunun əvəzinə o, çıxışını Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı təkzibolunmaz dəlilləri inkar etməyə, Xocalıda törədilmiş insanlıq əleyhinə cinayətləri təkzib etməyə və Azərbaycanın müstəqillik qazanmasından əvvəlki dövrdə baş verən faciəvi hadisələrlə bağlı yersiz ittihamlarla mənim ölkəmə hücum etməyə həsr edib.

Ölçüyəgəlməz sayda mövcud olan təkzibolunmaz dəlillər sübut edir ki, Ermənistan Azərbaycana qarşı müharibəni başladıb, Azərbaycana hücum edərək Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlar daxil olmaqla onun ərazilərini işğal edib, kütləvi surətdə etnik təmizləmə həyata keçirib və işğal olunmuş ərazilərdə etnik separatçı qurum yaradıb. Müharibənin gedişində Ermənistanın hərbi rəhbərliyi tərəfindən mülki Azərbaycan əhalisinə qarşı ən qəddar beynəlxalq cinayətlər törədilib.

Dünənki çıxışı zamanı Ermənistan naziri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən və artıq 26 ildir Ermənistanın işğalı altında olan Xocalı rayonunun adını çəkib. İcazə verin, 1992-ci ildə Xocalıda nə baş verdiyi barədə iştirakçıları məlumatlandırım. Həmin il fevralın 25-dən 26-na keçən gecə Xocalının günahsız mülki sakinləri Ermənistan hərbi qüvvələri tərəfindən bəşəriyyət tarixinin indiyə qədər görmüş olduğu ən qəddar vəhşiliklərdən birinə və müharibə cinayətlərinə məruz qalıb. Nəticədə qadınlar, uşaqlar və yaşlılar daxil olmaqla 613 azərbaycanlı qətlə yetirilib. Ermənistanın hazırkı prezidenti Serj Sarkisyan Xocalıda törədilən soyqırımında şəxsən iştirak edərək vəhşilikləri törədən qüvvələrə komandanlıq edib. Bu məqamda prezident Sarkisyanın 2003-cü ildə Böyük Britaniyadan olan jurnalist Tomas de Vaala müsahibəsini xatırlatmaq istərdim. Müsahibədə Sarkisyan Xocalı soyqırımını belə xatırlayıb: "Xocalıdan əvvəl azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki insanlara əl qaldıra bilməzlər. Amma biz bu stereotipi sındıra bildik". Bu cümlələrlə Ermənistan prezidenti əslində Azərbaycan tərəfinin müharibə şəraitində olsa belə beynəlxalq humanitar hüquq çərçivəsində qarşı tərəfdən sadəlövh gözləntilərini və sonradan bu gözləntilərdə necə yanıla bildiyini çox gözəl təsvir edib.

Ermənistan naziri çıxışında, həmçinin BMT qurumlarının Dağlıq Qarabağ bölgəsində insan hüquqlarının vəziyyətini qiymətləndirmək üçün əraziyə səfər etməsinin zəruri olduğunu ifadə edib. Bu xüsusda, Ermənistan xarici işlər nazirinə xatırlatmaq istərdim ki, məhz onun ölkəsi tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüquqları kobud şəkildə pozulmuş əhalisinin 1 nəfər belə nümayəndəsi hazırda həmin ərazidə yaşamır. Onlar məcburi köçkün qismində Azərbaycanın işğal altında olmayan digər şəhərlərində yaşayır. Əgər BMT qurumları Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar insan hüquqları pozuntularını qiymətləndirmək niyyətində olsalar onlar Azərbaycanın məcburi köçkünlərinin vəziyyətini öyrənmək üçün Azərbaycana gələ bilərlər.

Ermənistan nazirinin Sumqayıtda baş verən faciəvi hadisələrlə əlaqədar ifadə etdiklərinə gəldikdə isə, iştirakçıların nəzərinə çatdırmaq istərdim ki, SSRİ mərkəzi hakimiyyət orqanları tərəfindən həyata keçirilmiş istintaq tədbirləri nəticəsində Sumqayıtda baş verən hadisələri törədənlər olaraq etnik erməni mənşəli Eduard Qriqoryan və Jirayr Azizbekian müəyyən edilib və onlar digərləri ilə birlikdə hüquqi məsuliyyətə cəlb olunublar. İstintaq zamanı toplanmış materialların təhlili təsdiq edir ki, Sumqayıtda törədilən iğtişaş Azərbaycana qarşı Ermənistan və SSRİ kəşfiyyat qurumları tərəfindən təşkil edilmiş təxribat olub. Bu fakt Ermənistan prezidenti Serj Sarkisyanın 2005-ci il martın 30-da Ermənistan parlamentində keçirilmiş dinləmələr zamanı səsləndirdiyi bəyanatda da öz təsdiqini tapıb: "Sumqayıtda baş verən iğtişaşın və şəhərin erməni sakinlərinin kütləvi qətlinin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin nəzarəti altında törədildiyinə dair kifayət qədər əsaslar var".

Təəssüf ki, beynəlxalq ictimaiyyət Azərbaycanın 1 milyondan artıq qaçqın və məcburi köçkününün hüquqlarının kobud şəkildə pozulmasını illərdir sükutla izləyir. Bununla əlaqədar, mən hazırkı qeydlərimi məşhur bir yazıçıdan sitat gətirməklə beynəlxalq ictimaiyyətə müraciətlə bitirmək istərdim: "Əgər bir haqsızlıq görürsənsə onu görməyə bilməzsən və əgər bu haqsızlığı görüb ona münasibət bildirmirsənsə bu sükut həmin haqsızlıq barədə danışmaq qədər siyasi bir əməldir". Biz bütün dövlətləri Azərbaycanın qaçqın və məcburi köçkünlərinin üzləşdiyi haqsızlıqlara sükutla yanaşmamağa və onların hüquqlarının bərpasına dəstək verməyə çağırırıq".

# Avstraliya Azərbaycanlıları Assosiasiyası Xocalı soyqırımının tanınması üçün bu ölkənin Baş nazirinə müraciət edib

Avstraliya Azərbaycanlıları Assosiasiyası Xocalı soyqırımının tanınması üçün bu ölkənin Baş naziri Malkolm Ternbula müraciət ünvanlayıb. Bu barədə AZƏRTAC-ın xüsusi müxbirinə Assosiasiyanın prezidenti Mikayıl Oyta məlumat verib.

Müraciətdə cari il fevralın 26-da erməni silahlıları tərəfindən Azərbaycanın Xocalı şəhərində dinc sakinlərə qarşı törədilən soyqırımının 26-cı ilinin tamam olduğu bildirilir. Qeyd edilir ki, hər il həmin gün Avstraliyada yaşayan azərbaycanlılar bir araya gələrək faciə qurbanlarının xatirəsini anırlar.

Məktubda Baş nazirə 26 il bundan əvvəl erməni yaraqlılarının keçmiş SSRİ-nin 366-cı alayının köməyi ilə Dağlıq Qarabağ regionunda yerləşən Xocalı şəhərinə hücumu barədə ətraflı məlumat verilir. Bildirilir ki, bu, son detallarına qədər dərindən düşünülmüş əsl soyqırımı aktı idi. Erməni yaraqlılarının məqsədi daha çox dinc sakini qətlə yetirmək olub. Bunu beynəlxalq təşkilatların faciə barədə yaydığı məlumatlar da təsdiq edir. Qətlə yetirilənlər arasında 106 qadın, 63 uşaq da var idi ki, onların əksəriyyəti arxadan açılan atəşlə öldürülüb. Erməni yaraqlıları tutduqları əsirlərlə vəhşicəsinə davranaraq onları qətlə yetirməklə kifayətlənməyib, onların gözlərini çıxararaq, hamilə qadınların qarnını deşərək cəsədləri tanınmaz hala salıblar. Hücum zamanı 600-dən çox dinc sakin qətlə yetirilib, 1275 nəfər əsir götürülüb ki, onların 150 nəfərindən hələ də heç bir xəbər yoxdur.



AUSTRALIAN AZERBAIJANIAN ASSOCIATION (AAA)

Mobile: 0414275956 E-mail: azerbaijanylar@hotmail.com
Tel: 02 9769 0303 PO Box: 1864 Bondi Junction NSW 1355

The Hon Malcolm Turnbull MP
Prime Minister
Parliament House
CANBERRA ACT 2600

27th February 2018

Dear Prime Minister,

**RE: KHOJALY GENOCIDE**

We write to express our sorrow over the 26th anniversary of the Khojaly Genocide committed by Armenian forces on 26 February 1992. Each year on the 26th of February, the Australian Azerbaijan community pauses to remember the victims of war crimes and ethnic cleansing, which occurred on an unsuspecting civilian population in the town of Khojaly in Azerbaijan.

On 26 February 1992, backed by Russian forces, Armenian militants commenced a deadly assault the Azerbaijani town of Khojaly near the illegally occupied region of Nagorno Karabakh. This was a cold and calculated attack.

Reports show that Armenian militants raided the town with the intent to kill as many civilians as possible. Families were trapped in their homes and burnt alive while The Human Rights Watch reported in 1993 that the death toll included 106 women and 83 children, many of whom were shot in the back while fleeing the attack. The Armenian forces spared virtually none of the civilians who could not flee from Khojaly and surrounding areas. Armenian militants mutilated dead bodies by gorging out eyes, cutting off women's breasts, and bayoneting pregnant women in the abdomen. As a result of the assault, over 600 civilians were killed, in addition to over 487 civilians (including children) who were seriously wounded, and over 1,275 people were taken hostage by Armenians forces, while the fate 150 people remains unknown to this day.

The President of Armenia, Serzh Sargsyan, has expressed a lack of remorse in an interview with British journalist Thomas de Waal in December 2000 where he brazenly stated, "Before Khojaly, the Azerbaijanis thought that the Armenians were people who could not raise their hands against the civilian population. We were able to break that [stereotype]."



You may be aware that the Khojaly genocide is closely linked to the Nagorno Karabakh conflict where Armenian forces currently illegally occupy 20% of Azerbaijan's land. The unlawful occupation and Armenian Aggression have been condemned by The United Nations by way of the UN Resolutions 822, 853, 874 and 884 which have been ignored by Armenian forces.

In 2013, the NSW Premier Gladys Berejiklian and an envoy of Australian politicians illegally entered Azerbaijan's occupied territory of Nagorno Karabakh and later to Armenia to meet with President Sargsyan on what appear to have been a promotional stunt in favour of the aggressors. The Australian Azerbaijanian community has taken offence to these actions which reveals the NSW premier's indifference to such criminal conduct, and undermines her role in representing all Australian's living in NSW.

As result of the issues outlined above, the Australian Azerbaijanian Association is taking part in the in the international Justice for Khojaly campaign whereby we aim to promote awareness for the tragedy which the Azerbaijanian people have endured and to gain formal recognition of the Khojaly Genocide.

Mr Prime Minister, we ask that the Australian government formally recognize the Khojaly Genocide. We also ask that your government prompt the Armenian government and its illegitimate agents in Karabakh to engage in diplomacy with the view of returning the occupied territories to Azerbaijan.

We appreciate your time and hope to receive a response.

Sincerely,

AUSTRALIAN AZERBAIJANIAN ASSOCIATION

Michael Oyta
Australian Azerbaijanian Association Inc. (AAA)

Məktubda Ermənistan prezidenti Serj Sarkisyanın britaniyalı jurnalist Tomas de Vaala müsahibəsi zamanı dediyi sözlər də yer alıb. Bu isə indiki Ermənistan hakimiyyətinin həmin qanlı cinayətdə birbaşa əlinin olmasını bir daha təsdiq edir.

Daha sonra qeyd olunur ki, Xocalı soyqırımı Azərbaycan ərazisinin 20 faizinin işğalı ilə tamamlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə sıx bağlıdır. Bu qeyri-qanuni işğal isə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi ilə pislənilib, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxarılması tələb edilib. Lakin bu qətnamələr hələ də həyata keçirilməmiş qalır.

Məktubda dünyanın hər yerində geniş yayılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası barədə ətraflı məlumat verilir.

Sonda bir daha Baş nazirə müraciət edən soydaşlarımız ondan Xocalı soyqırımının Avstraliya hökuməti tərəfindən rəsmən tanınmasını xahiş edirlər.

# Azərbaycanlı gənclər Avropa Parlamentindəki erməni təbliğat maşınına daha bir zərbə vurdular

Azərbaycanlı gənclər fevralın 28-də Avropa Parlamentinin (AP) binasında keçirilən bir digər erməni tədbirinə müdaxilə edərək, düşmənin təbliğat məqsədlərini bir daha puça çıxarıblar. AZƏRTAC xəbər verir ki, işğal edilmiş ərazilərimizə qanunsuz səfər etdiyinə görə Azərbaycan tərəfindən axtarışa verilmiş AP üzvlərinin ev sahibliyi və Brüsseldəki erməni lobbi təşkilatlarının dəstəyi ilə Dağlıq Qarabağa dair Avropa Parlamentinin binasında propaqanda tədbirinin keçirilməsi planlaşdırılıb. Qeyd edək ki, bu AP üzvləri, həmçinin Avropa Parlamentində fəaliyyət göstərən Aİ-Ermənistan dostluq qrupunun rəhbərliyində yer alırlar. Lakin tədbirə qoşulan Azərbaycanlı gənclər çıxışlar yekunlaşan kimi söz alıblar və verdikləri suallarla ermənipərəst çıxışçıları çətin vəziyyətdə qoyublar. İşğal olunmuş ərazilərdən olan gənclər açıq şəkildə erməni lobbisinin beynəlxalq ictimaiyyəti aldatmağa cəhd etdiyini və bilərəkdən yalnız ermənilərin münaqişədən əziyyət çəkən tərəf kimi təbliğ etdiyini diqqətə çatdırıblar. Məcburi köçkün həyatının çətinliklərindən danışan gənclər tədbirin əvvəlində Sumqayıt hadisələrinə görə bir dəqiqəlik sükut elan edən (milliyyətcə erməni qadınla evli olan) Frank Engelə müraciət edərək, eyni yanaşmanı Xocalı qurbanlarına da nümayiş etdirilməsini tələb ediblər.



Bu gözlənilməz sual qarşısında duruxan F.Engel bir dəqiqəlik sükutun bütün Qarabağ münaqişəsi qurbanlarına həsr edildiyini deyib və tədbir zalını tərk edib. Tədbir zamanı, həmçinin təşkilatçılar bu propaqanda tədbirinə çoxsaylı dəvətlər göndərilməsinə baxmayaraq, Avropa İttifaqının qurumlarının nümayəndələrinin qoşulmamasından açıq şəkildə narazılıq bildiriblər.

Beləliklə, Azərbaycan gəncləri bir daha sayıqlıq göstərərək erməni diasporunun Avropa Parlamentinin binasında planlaşdırılan propaqanda fəaliyyətinə daha bir zərbə vurublar.

# Elm və təhsil sahəsinə dövlət qayğısı gücləndirilir

***Bu gün ölkəmizdə aparılan abadlıq-quruculuq işləri, iqtisadi islahatlarla yanaşı, elmə və təhsilə də dövlət tərəfindən xüsusi diqqət ayrılır. Dövlətin potensialının güclənməsi və dünyaya inteqrasiya prosesinin sürətlənməsi elmin inkişafı ilə sıx bağlıdır. Milli intibahı təmin edən ən başlıca vasitə olan elm və təhsil, həm də cəmiyyət qarşısında dayanan bir çox əsaslı problemlərin həllində vacib rola malikdir.***



Dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ölkəmiz üçün yüksək elmi potensiala malik mütəxəssislərin hazırlanmasını tələb edir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə diqqət etsək, görərik ki, həmin ölkələrin uğurlarının təməlində elmi-texniki tərəqqi dayanır. Dövlət tərəfindən elmin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda, Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. İqtisadiyyatın inkişafının əsasında elmi tərəqqi dayandığından, prioritetlər düzgün seçilməli və onun üzərində işlər müəyyənləşmiş xətt üzrə aparılmalıdır. Elm və təhsilin inkişafı və bu sahədə mövcud olan bəzi problemlərin aradan qaldırılması istiqamətində ardıcıl işlər görülməkdədir. Dövlət başçısı İlham Əliyevin "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncamı bir sıra problematik məsələlərin həllində, elmi tədqiqatların müasir standartlar səviyyəsində qurulmasında, ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsində əhəmiyyət rol oynadı. Bu gün Azərbaycanın elmi beynəlxalq elm məkanına inteqrasiyası prosesi güclənib. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" elm sahəsində həyata keçiriləcək islahatların konseptual əsaslarını özündə əks etdirən növbəti addım oldu. Elmin inkişafını nəzərdə tutan Milli Strategiya Azərbaycan elminin respublikanın iqtisadi inkişafında rolunun artırılmasında, yüksək ixtisaslı kadrların hazırlanmasının təmin edilməsidə, mühüm sosial-iqtisadi və ictimai-siyasi vəzifələrin həllində rol oynadı. Artıq Azərbaycanda elmin hüquqi-normativ bazası yaradılıb. Bu və digər sərəncamlar, dövlət proqramlarının icra və tətbiqi Azərbaycan elminin inkişafını sürətləndirir. Bütün bunlarla yanaşı, "Elm haqqında" qanun layihəsi elmi fəaliyyət sahəsində dövlət siyasətinin məqsəd və prinsiplərini, elmi fəaliyyətin subyektlərinin və iştirakçılarının hüquq və vəzifələrini, elmi fəaliyyətin təşkilati, hüquqi əsaslarını müəyyənləşdirmiş oldu. Bütün bunlar Azərbaycan Prezidenti Cənab İlham Əliyevin elmi potensialın gücləndirilməsinə yönəlmiş siyasi xəttinin nümunəsidir.

## DÖVLƏT BAŞÇISININ İMZALADIĞI SƏRƏNCAMLAR TƏHSİLDƏ KEYFİYYƏTİN İNKİŞAFINA YÖNƏLİB

Bu gün Azərbaycanın hər bir regionunda müasir standartlara cavab verən məktəblər inşa olunur, təhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılması üçün mütəmadi işlər görülür. Azərbaycan təhsil sisteminin modernləşdirilməsi istiqamətində məqsədyönlü islahatlar aparılır. Qəbul olunan dövlət proqramları ölkəmizdə təhsilin yeni, keyfiyyətli inkişafına səbəbdir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində görülən işlər öz nəticəsini verir. Qeyd olunan sənəd çərçivəsində gənclər doktoranturu, rezidentura təhsili almaq hüququ qazanıblar. Təhsil sistemində keyfiyyətin yüksəldilməsi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, şəffaflığın təmin edilməsi, müasir idarəetmə modelinin tətbiqi və digər müvafiq istiqamətlər üzrə həyata keçirilən islahatlar və tədbirlər uğurla davam etdirilir.



Bütün bunlarla yanaşı, elm və təhsilin inkişafı ilə bağlı dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artırılması, elm və təhsil sahəsində çalışan müəllimlərin əməkhaqlarında, tələbə, magistr və aspirantların təqaüdlərində özünü göstərməsi, məhz dövlətin milli elmin inkişafı istiqamətinə diqqətin yönəldiyinin bariz ifadəsidir. Bu günlərdə isə, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün artırılması haqqında" Sərəncamı, "Doktorantlar, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələri üçün müəyyən edilmiş təqaüdlərin artırılması haqqında" Sərəncamı təhsil sahəsinə dövlət qayğısını gücləndirmək məqsədi daşıyır.

## AZƏRBAYCANDA TƏHSİL İNFRASTRUKTURU İNKİŞAF EDİR

Qeyd edək ki, son illərdə yüksək və keyfiyyətli təhsildən danışırıqsa, müasir standartlara cavab verən təhsil ocaqlarının olmasının zəruriət yaratdığını da bildirməliyik. Təkcə ötən ildə ölkədə 133 yeni məktəbin tikilib, 14 məktəb əsaslı təmir edilib. Bu statistik rəqəm təhsilə dövlət qayğısının göstəricilərindəndir. Təbii ki, cari ildə də məktəblərin tikilməsi, bərpa və təmir olunması nəzədə tutulub. Belə ki, bölgələrdə yüzlərlə məktəbdə təmir işləri aparılacaq. Bakı şəhərində isə 12 məktəb əsaslı təmir ediləcək. Bununla yanaşı, 14 təhsil müəssisəsinin tikintisi də nəzərdə tutulur.

Xatırladaq ki, son illərdə reallaşdırılan infrastruktur layihələri çərçivəsində tikilən və əsaslı təmir edilən 3104 məktəbdən 2826-sı (91%) regionların payına düşür. O cümlədən, ötən il ölkəmizin 40-dan çox bölgəsində 106 qəzalı vəziyyətdə olan təhsil müəssisəsi modul tipli məktəblə əvəz olunub. Modul tipli məktəblər Balakən, Sabirabad, Şəki, Quba, Qusar, Neftçala, Kürdəmir, Ağdaş, İsmayıllı, Tovuz, Göygöl, Tərtər, Göyçay, Qəbələ, Oğuz və digər rayonlarda inşa olunub. Bu yaxınlarda ölkəmizdə təhsil infrastrukturunun yenidən qurulması məqsədilə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən, Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında daha 444 şagird yerlik modul tipli 8 məktəb quraşdırılacaq ki, buna "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"dən 2 590000 (iki milyon beş yüz doxsan min) manat vəsait ayrıldı. Ümumilikdə, cari ildə 41 rayonda 137 modul tipli məktəb inşa olunması nəzərdə tutulub. Fevralın 24-də Azərbaycan Prezidentinin imzaladığı "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" Sərəncamına əsasən, 2017-ci ildə quraşdırılmış modul tipli 44 təhsil müəssisəsi qazlaşdırılacaq. Sərəncama əsasən, "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 830 000 (səkkiz yüz otuz min) manatı bu məqsədə ayrılacaq. Şabran rayonu Xırdaoymaq kənd, Şamaxı rayonu Nağaraxana kənd, Şəki rayonu Fazil kənd, Şəmkir rayonu Hacalılar kənd və s. yerlərdə quraşdırılan modul tipli ümumi orta məktəblər qazla təmin ediləcək. Bütün bunlar bir məqsədə - elmin inkişafına, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “L’Opinione” qəzeti: Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir


l’Opinione delle Libertà
OPINIONETV SFOGLIA IL PDF IN EDICOLA OPINIONEVENTI
TRIBUNALE DREYFUS
HOME EDITORIALI POLITICA ECONOMIA ESTERI CULTURA WEB HI-TECH SOCIETÀ
HOME / ESTERI
IN AZERBAIGIAN MULTICULTURALISMO COME POLITICA DI STATO
di Giorgia Pilar Giorgi
28 febbraio 2018
In occasione del 26esimo anniversario del massacro di Khojaly, domani, presso la Biblioteca del Senato di Roma, verrà presentato il libro “Il Dolore”, di Amir e Arye Gut, una storia che racconta l’amore tra un dottorando israeliano in cerca di testimonianze sulla geopolitica del Caucaso meridionale e una giovane azerbaigiana, sopravvissuta al genocidio di Khojaly, l’evento più drammatico avvenuto nell’ambito del conflitto del Nagorno Karabakh tra l’Armenia e l’Azerbaigian. La nascita di un amore tra persone di diverse identità da una parte si fa testimonianza di multiculturalismo e dialogo interconfessionale, dall’altra documenta accuratamente la storia del popolo azerbaigiano, divenuto profugo nella propria terra. In tale occasione abbiamo incontrato il capo del Dipartimento di multiculturalismo, relazioni
L’Opinione
12 159 нравится
Нравится Страница
Поделиться
6 друзьям это нравится
L’Opinione
9 ч назад
Serve che il quattro marzo esca dalle urne quella certezza di futuro, di sviluppo e di crescita che solo il #centrodestra può dare.
2018
Un Paese da disintossicar
Da troppi anni questo Paese è so...

***Romada səfərdə olan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun İtaliyanın nüfuzlu “L’Opinione” qəzetində müsahibəsi dərc olunub.***

AZƏRTAC xəbər verir ki, müsahibənin müəllifi tədqiqatçı jurnalist Corcia Pilar Ciorici Etibar Nəcəfovun İtaliyada səfəri çərçivəsində Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri Arye Qutun öz atası Əmir Qut ilə birlikdə yazdığı və İtaliyada dərc olunmuş “Ağrı” (Il Dolore) romanının Romada keçiriləcək təqdimatında çıxış edəcəyini, İtaliya rəsmi qurumlarının, eləcə də müxtəlif dini icma təşkilatlarının rəhbərləri ilə görüşlər keçirəcəyini və universitetlərdə multikulturalizm mövzusunda mühazirələr söyləyəcəyini bildirib. Müsahibəni oxucuların diqqətinə təqdim edirik.

- Müasir dövrdə dünyanın bir sıra ölkəsində etnik və ya dini zəmində münaqişələr baş verir. Zəngin etnik və dini müxtəlifliyə malik olan Azərbaycan Respublikasında qeyd olunan zəmində heç bir qarşıdurma yoxdur. Bunun səbəbi nədir?

- Həqiqətən, Azərbaycan etnik, dini və mədəni müxtəlifliyə malik olan bir ölkədir. Etnik-mədəni müxtəliflik tarixi prosesin nəticəsi kimi obyektiv xarakter daşıyır. O, xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir və həyatında müsbət rol oynayır. Lakin etnik-mədəni müxtəliflik dövlət tərəfindən tənzimlənmədikdə və yaxud düzgün tənzimlənmədikdə, o, cəmiyyətin inkişafının müxtəlif sahələrində ciddi problemlərə, hətta münaqişələrə səbəb olur. Buna görə də bu müxtəlifliyin düzgün tənzimlənməsi hər bir çoxmədəniyyətli dövlət üçün böyük praktiki əhəmiyyət kəsb edir.

Bir çox ölkələrdən fərqli olaraq Azərbaycan Respublikası cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi assimilyasiya və ya izolyasiya siyasəti vasitəsilə deyil, multikulturalizm siyasəti vasitəsilə tənzimləyir. Multikulturalizm siyasəti isə milli azlıqların etnik-mədəni dəyərlərinin qorunmasını təmin edir. O, titul etnos ilə milli azlıqların etnik-mədəni dəyərlərinin inkişafına eyni şərait yaratmaqla onların mədəniyyətlərinin qarşılıqlı təsiri üçün zəmin yaradır. Bu isə cəmiyyətdə inteqrasiya proseslərini möhkəmlədir.

Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Bundan başqa multikulturalizmi dövlət siyasəti kimi qəbul edən digər ölkələrdən fərqli olaraq Azərbaycanda etnik-mədəni müxtəlifliklər multikulturalizm siyasəti vasitəsilə uğurla, səmərəli şəkildə tənzimlənir.

- Lakin məlum olduğu kimi, son dövrdə bir sıra Qərb ölkələrinin başçıları multikulturalizm siyasətinin iflasa uğramasını qeyd ediblər. Sizin ölkənizdə bu siyasətin uğurla aparılmasının səbəbləri nə ilə bağlıdır?

- Doğrudur. Qərb ölkələrində multikulturalizm siyasətinin aparılması ilk illərdə müəyyən müsbət nəticələr versə də, sonrakı dövrdə o, etnik-dini zəmində ziddiyyətlərin kəskinləşməsinə səbəb olub. Nəticədə Avropanın aparıcı ölkələrinin (Böyük Britaniya, Fransa, Almaniya) başçıları multikulturalizm siyasətinin müasir dövrdə səmərəsiz olması səbəbindən iflasa uğradığını göstəriblər.

Azərbaycanda multikulturalizm siyasətinin uğurla aparılmasının obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər dedikdə ilk növbədə tarixi və coğrafi amillər nəzərdə tutulur. Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olub. Azərbaycanın tarixinin bütün mərhələlərində onun ərazisində müxtəlif xalqların nümayəndələri birgə əmin-amanlıq şəraitində yaşayıblar. Azərbaycanda əlverişli multikultural mühitin olması tarixin müxtəlif mərhələlərində təqib olunan xalqların nümayəndələrinin kütləvi şəkildə bura köçməsinə səbəb olub. Məsələn, hələ təxminən 2600 il bundan əvvəl Babil hökmdarı tərəfindən təqib olunan yəhudilər İsraili tərk edərək Azərbaycana pənah gətiriblər.

Coğrafi baxımdan isə Azərbaycan müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu bir ərazidir. Belə ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, dini və mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdiriblər. Bu isə öz növbəsində belə ərazilərdə multikultural mühitin formalaşması üçün əlverişli şərait yaradıb.

Azərbaycanda multikulturalizm siyasətinin subyektiv səbəbləri dedikdə, ölkəni idarə edən dövlət xadimləri və Azərbaycan xalqı nəzərdə tutulur. Azərbaycanın tarixinin müxtəlif mərhələlərində ölkə başçıları cəmiyyətdəki etnik-mədəni müxtəliflikləri elə tənzimləmişdilər ki, burada etnik və dini zəmində ciddi münaqişələr baş verməmişdi. Azərbaycanda multikultural mühit ölkənin müstəqil olduğu zamanda daha da güclənib. Məsələn, 1918-ci ildə bütün müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentində ölkədə yaşayan milli azlıqların nümayəndələrindən deputat və hökumətin tərkibində nazir vəzifəsinə təyin olunmuşlar var idi.

Azərbaycanda multikulturalizm siyasətinin əsasını ümummilli lider Heydər Əliyev qoyub. Müasir dövrdə bu siyasəti Azərbaycan Respublikasının Prezident İlham Əliyev uğurla davam etdirir. Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğraması bəyan edildiyi bir dövrdə Prezident İlham Əliyev multikulturalizmin müasir dünyada alternativinin ayrı-seçkilik, irqçilik, ksenofobiya, islamofobiya, antisemitizm olduğunu qeyd edir və yeni tarixi şəraitdə multikulturalizmi inkişaf etdirərək onu ölkənin daxili və xarici siyasətinin mühüm istiqaməti kimi təqdim edir.

- Azərbaycan Respublikasının daxili və xarici siyasətinin mühüm istiqaməti kimi multikulturalizm özünü nədə büruzə verir?

- Multikulturalizm Azərbaycanın daxili siyasətinin mühüm istiqaməti kimi özünü ölkəmizdə etnik-dini zəmində heç bir qarşıdurmanın olmamasında göstərir. Multikulturalizm siyasəti vasitəsilə ölkə daxilindəki etnik-mədəni müxtəlifliklər tənzimlənərək bütün xalqların etnik-mədəni dəyərlərinin qorunmasına nail olunub. Bu, demokratik cəmiyyətin norma və prinsiplərinə uyğun gəlir. Belə ki, xalqların etnik-mədəni dəyərlərinin qorunması insan haqlarının tərkib hissəsidir.

Ölkələrarası münasibətlərdə isə bu siyasət Azərbaycanın bütün ölkələrlə hərtərəfli əlaqələrinin inkişafı üçün münbit zəmindir. Bu isə öz növbəsində dünya miqyasında mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafı üçün əlverişli şərait yaradır.

Mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunması istiqamətdə ölkəmiz böyük uğurlara imza atıb. Belə uğurlardan biri kimi son dövrdə siyasi leksikona daxil olmuş “Bakı prosesi”ni qeyd etmək olar. “Bakı prosesi” mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan bir təşəbbüsdür.

“Bakı prosesi” təşəbbüsünü ilk dəfə ölkə Prezidenti İlham Əliyev 2008-ci ildə irəli sürüb. Regional təşəbbüs kimi yaranan “Bakı prosesi” 2010-cu ildən Prezident İlham Əliyevin səyi nəticəsində qlobal hərəkata çevrilməyə başladı. Azərbaycan “Bakı prosesi” çərçivəsində Dünya Dini Liderlərinin Sammitinə (2010), Beynəlxalq Humanitar Forumlara (2011, 2012, 2013, 2014 və 2016), Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarına (2011, 2013, 2015 və 2017) və BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna (2016) ev sahibliyi edib.

Müsahibə ilə bu linkdən tanış olmaq mümkündür:

http://www.opinione.it/esteri/2-018/02/28/giorgia-pilar-giorgi_azerbaigian-multiculturalismo-libro-amir-arye-gut/

***Asiman Əsədov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Roma***

## Seymur Orucov: “Gənclər üçün maarifləndirici tədbirlər həyata keçirilib”

“Yeni Azərbaycan Partiyası Gənclər Birliyi say tərkibinə, üzvlərinin sayına, keyfiyyətinə görə, Azərbaycanda ən böyük siyasi təşkilatdır, birliydir. Bunun üçün də bizim fəaliyyətimizi tək paytaxtda deyil, bütün Azərbaycanın ərazisində, regionlarda da aktiv şəkildə həyata keçiririk. İlk növbədə YAP GB-nın üzvləri, təşkilatlarımız hansı rayonda, şəhərdə yaşayırlarsa oranın ictimai-siyasi həyatında aktiv iştirak edirlər”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.



Onun sözlərinə görə, tədbirlərin təşkilatçılığında, könüllülük məsələlərində gənclər xüsusi fəallıq nümayiş etdirirlər: “Bundan əlavə həyata keçirdiyimiz layihələri, tədbirləri hər zaman ictimaiyyətlə əlaqələndiririk və onlara açıqlamalar veririk. Məsələn, biz bir çox tanınmış insanlarla partiya gənclərinin görüşlərini mütəmadi olaraq təşkil edirik. Bu yaxınlarda bildiyiniz kimi YAP GB-nın hesabat tədbiri keçirildi. 2017-ci ildə “Cocuq Mərcanlıdan Şuşaya” adlı layihəyə start verdik və Cocuq Mərcanlıda gənclərin əsgərlərlə görüşləri keçirildi. Gənclərimiz orada abadlıq işlərində, ağacəkmə kampaniyalarında fəallıq nümayiş etdirdilər. Bundan sonra gənclər üçün maarifləndirici tədbirlər həyata keçirilib. Həmçinin Xocalı soyqırımında ədalətin tanınması ilə bağlı Avropa Parlamentinə, Avropa Birliyinə, oranın bir çox komissarlarına e-maillər göndərmişik.

Biz artıq bunu bir ənənə halına çevirmişik ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın başlatmış olduğu “Xocalıya ədalət!” beynəlxalq kampaniyasında gənclərimiz aktiv iştirak edib bu işlərə dəstək olsunlar. Bildiyiniz kimi Azərbaycanda keçirilən İslam Həmrəyliyi Oyunlarında gənclərimiz könüllü olaraq iştirak etmişdilər. Həmçinin “İslam Həmrəyliyi İli” ilə bağlı paytaxt və regionlarda bir çox silsilə tədbirlər həyata keçirmişdik. Ötən il Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi oldu. Bununla bağlı gənclərlə regional toplantılar və görüşlər olmuşdu”.

## İnam Kərimov: “Azərbaycan vətəndaşlarına “ASAN xidmət” mərkəzləri tərəfindən viza verilməsi üçün danışıqlar aparılır”

Azərbaycan vətəndaşlarına “ASAN xidmət” mərkəzləri tərəfindən viza verilməsi üçün danışıqlar aparılır.



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov deyib. Onun sözlərinə görə, bunun üçün “ASAN viza 2” konsepsiyası hazırlanıb. Hazırda müvafiq qurumlarla danışıqlar aparıldığını söyləyən İ.Kərimov vurğulayıb ki, pilot layihə çərçivəsində bir neçə səfirliklə əməkdaşlıq qurulduqdan sonra Azərbaycan vətəndaşları istədikləri ölkəyə vizanı daha rahat əldə edə biləcəklər.

## Osman Köse: "Azərbaycanın seçki təcrübəsi getdikcə artır"

*Türkiyəli professor, ekspert Osman Kösenin sechki-2018.az saytına müsahibəsi*




***- Bildiyiniz kimi, aprelin 11-də Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcək. Azərbaycandakı seçki mühitini dəyərləndirirsiniz?***

- Əvvəla qeyd etmək istəyirəm ki, 1993-cü ildən sonra Azərbaycanda demokratik ənənələrin inkişafı istiqamətində mühüm addımlar atılıb. O dövrdən sonra Azərbaycanda sabit, demokratik seçkilər keçirilməyə başlandı və ölkəniz demokratik ənənələrin inkişaf dövrünə qədəm qoydu. Azərbaycanda demokratiyanın formalaşması və inkişafında xalqın ümummilli lideri Heydər Əliyevin rolu böyükdür. Bu gün Azərbaycanda demokratik cəmiyyət formalaşıb. Ölkədə sabitlik mövcuddur. Bunlar isə demokratik, şəffaf seçkilərin keçirilməsi üçün əsas əmillərdir.

***- Bəzi dairələr Azərbaycanda demokratiya ilə bağlı neqativ iddialar səsləndirirlər.***

- Azərbaycanın köklü tarixi var. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti ölkədə demokratik dövlət-quruculuğu istiqamətində mühüm addımlar atıb. Müstəqilliyini yenidən bərpa edən Azərbaycan hüquqi dövlət quruculuğunda məhz həmin tarixi dəyərlərə söykənir. Bu baxımdan, Azərbaycan gənc dövlət olsa da, tarixə söykənən demokratik ənənəyə mövcuddur. Təhsil səviyyəsinin yüksəlməsi və ölkənin nəhəng mədəniyyəti Azərbaycanda demokratiyanın getdikcə daha da möhkəmlənəcəyini deməyə əsas verir.

***- Azərbaycanın seçki təcrübəsini necə dəyərləndirirsiniz?***

- 1993-cü ildən bu günə qədər Azərbaycanda prezident, parlament, bələdiyyə seçkiləri, həmçinin referendumlar keçirilib. Bu, Azərbaycanın ciddi seçki təcrübəsinin mövcud olduğunu göstərir və bu təcrübə getdikcə möhkəmlənir. Qeyd etdiyim kimi, Azərbaycanda demokratik cəmiyyət formalaşıb, şəffaf seçkilərin keçirilməsi üçün ideal mühit var.

***- Seçkilər zamanı bəzi xarici qüvvələr tərəfindən Azərbaycanla bağlı qarayaxma kampaniyaları təşkil edilir. Bu haqda nə deyə bilərsiniz?***

-Seçkilərin keçirildiyi ölkələrdə bu cür hallar baş verir. Bunlar daha çox seçkinin nəticələrinə təsir etmək cəhdləridir. Çünki Azərbaycan adi bir ölkə deyil. İqtisadi inkişafı və strateji mövqeyi ilə bir çox ölkənin diqqət mərkəzində olan dövlətdir. Azərbaycanın təşəbbüsü ilə qlobal layihələr həyata keçirilir. Ölkə güclü beynəlxalq mövqeyə sahibdir. Əminəm ki, bəzi qüvvələrin bu cür cəhdləri heç bir nəticə verməyəcək.

## İosif Şaqal: "Azərbaycan xalqı gələcək rifahına səs verəcək"



Mən şübhə etmirəm ki, Azərbaycan xalqı əvvəllər olduğu kimi, budəfəki seçkilərdə də iradə nümayiş etdirərək, öz gələcək rifahına, Vətənin çiçəklənməsinə səs verəcək. Bu fikirləri sechki-2018.az saytına açıqlamasında Knessetin 17-ci çağırış deputatı, səfir İosif Şaqal bildirib.

"Peşəmlə əlaqədar olaraq uzun illər Yaxın Şərq və Mərkəzi Asiya ölkələrində, xüsusilə də qaynar nöqtələrdə, ərazi, etnik və dini münaqişə ocaqlarında baş verən prosesləri izləmişəm. XX əsrin sonu, XXI əsrin əvvəllərində baş verən prosesləri, xüsusilə də Sovet İmperiyasının süqutundan sonra müstəqillik qazanan dövlətlərin formalaşma tarixini təhlil etdikdə, həmçinin filosoflar, politoloqlar və hüquqşünasların cəmiyyətin siyasi və ölkəni idarəetmə sisteminin üstünlükləri və çatışmazlıqları barədə müzakirələrindən də bu qənaətə gəlmək olur ki, bir qayda olaraq, ölkənin təhlükəsizliyini və milli maraqlarını təmin edən, eyni zamanda, düşünülmüş, davamlı və müstəqil xarici siyasət yürüdən dövlətlər düzgün yoldadır və sabitlik də məhz bu ölkələrdədir. Əfsuslar olsun ki, bu regionlarda belə ölkələr çox deyil. Bu səbəbdən dünyanın aparıcı mütəxəssislərinin, ekspertlərinin gənc olmasına rəğmən Azərbaycan Respublikasının sabit, dinamik inkişaf edən, müstəqil və tolerant ölkə olması barədə fikirlərini Bakıda anadan olan və burada təhsil alan biri kimi dəstəkləmək mənim üçün çox xoşdur", - deyə səfir vurğulayıb.

## 85 saylı Şamaxı seçki dairəsində 11 məntəqədə veb-kameralar quraşdırılıb



85 saylı Şamaxı seçki dairəsində 11 məntəqədə veb-kamera quraşdırılıb. Bu barədə sechki-2018.az saytına seçki dairəsinin sədri Hüseyin Rəcəbov məlumat verib. O bildirib ki, seçkilərə hazırlıq yüksək səviyyədə davam edir: "Fevralın 19-21 tarixlərində dairə üzrə maarifləndirici kurslar həyata keçirilərək lazım olan təlimatlar verilib. Ümumilikdə seçki dairəsinin tərkibində 63 məntəqə var. 85-saylı seçki dairəsində 41400 seçici qeydiyyata alınıb".

Seçkilərin yüksək səviyyədə baş tutacağına əminliyini ifadə edən dairə sədri söyləyib ki, adlarını siyahıda tapmaqda çətinlik çəkən seçicilər üçün də lazımi şərait yaradılıb: "MSK-nın maarifləndirici şüarları, təbliğat plakatları rayon üzrə bütün seçki məntəqələrində görmək mümkündür".

## Azərbaycanda seçki keçirilməsi sahəsində böyük təcrübəyə malik peşəkar kadrlar formalaşıb



**Siyasi Texnologiyalar Mərkəzinin prezidenti, seçki məsələlər üzrə mütəxəssis Vəli Əlibəyovun sechki-2018.az saytına müsahibəsində Azərbaycanın seçki təcrübəsi, bu sahədə yaradılan qanunvericilik bazası barədə danışıb. Müsahibəni təqdim edirik**

***- Azərbaycanın seçki təcrübəsini necə dəyərləndirirsiniz?***

- Azərbaycanda keçirilən hər seçki bu sahadə təcrübənin artması və mükəmməlləşməsinə yardım edir. Əgər biz bugünkü seçki prosesini 10-15 il bundan əvvəlki ilə müqayisə etsək, o zaman hazırkı seçkilərin təşkilati baxımdan xeyli irəlidə olduğunu görə bilərik. Azərbaycanda seçki keçirilməsi sahəsində böyük təcrübəyə malik peşəkar kadrlar formalaşıb. İnsanların özlərinin də seçki prosesinə münasibəti getdikcə dəyişir. Bu baxımdan demək olar ki, ölkədə keçirilən seçkilərin keyfiyyəti artmaqda davam edir.

***- Müstəqillik dövründən başlayaraq bu günə kimi seçkilərin təşkilində hansı yeniliklər edilib?***

- Müstəqillik qazanan dövlətlərin əsas problemi qanunvericiliyin yeni çağırışlara uyğun formalaşması olur. Bu, əsasən yeni siyasi institutların fəaliyyətinin nizamlanması baxımından çox önəmlidir. Müstəqillik qazanan xalqımız demokratik inkişaf yolu seçdiyindən siyasi institutlarının məhz bu istiqamətdə formalaşmasına çalışdı. Birpartiyalı sistemdən çoxpartiyalı sistemə, totalitar cəmiyyətdən pluralistik cəmiyyətə keçid qanunvericiliyin sıfırdan yenilənməsini tələb edirdi. Bu gün əminliklə demək olar ki, seçki qanunvericiliyinin müasir tələblərə uyğun formalaşması artıq başa çatıb. Azərbaycanın seçki qanunvericiliyi ölkədə tam şəffaf və ədalətli seçkilərin keçirilməsinə imkan yaradır. Məntəqələrdə canlı videomüşahidə kameralarının quraşdırılması, seçici siyahıları üzrə daimi iş, müşahidə üçün əngəllərin olmaması və s. bu kimi faktları seçkilərin təşkilində müsbət yeniliklər kimi qeyd etmək olar. Son 10 il keçirilən seçkilərdə iştirak etmiş yerli və beynəlxalq müşahidəçilərin rəylərinə diqqət yetirsək görərik ki, əksəriyyət seçkiləri yüksək qiymətləndirib.

## Musa Qasımlı: "İctimai-siyasi sabitlik seçki mühitini səciyyələndirən əsas amillərdəndir"



Seçkiöncəsi mühiti bir sıra amillər səciyyələndirir. İlk növbədə, ölkədə ictimai-siyasi sabitlik mövcud olmalıdır. Sabitlik olmasa, normal seçki mühitindən danışmaq, azad, ədalətli, bərabər, şəffaf və demokratik seçki keçirmək mümkün olmaz. Bu sözləri sechki-2018.az saytına açıqlamasında AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı ölkəmizdəki seçki ab-havasını dəyərləndirərkən deyib.

Deputat bildirib ki, Konstitusiyanın, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq iddiaçılar Mərkəzi Seçki Komissiyasına sənədlərini təqdim edir, müvafiq qurumlar isə seçki məsələlərinə dair maarifləndirici tədbirlər həyata keçirirlər. Azərbaycanda seçki prosesini həyata keçirən qurumların kifayət qədər təcrübəsinin olduğunu qeyd edən deputat deyib: "Əminəm ki, ölkəmizdə prezident seçkiləri tam azad, demokratik, şəffaf şəkildə təşkil olunacaq, xalqımız fəallıqla səsvermədə iştirak edərək öz gələcəyinə səs verəcək".

## Nurqali Yusipbay: "Azərbaycanın təcrübəsi seçkilərin demokratik və ədalətli keçirilməsi üçün münbit şərait yaradır"



Prezident seçkilərinin Azərbaycan xalqının maraqlarına uyğun şəkildə keçiriləcəyinə əminik. Təbii ki, Azərbaycandakı mövcud vəziyyət və indiyə qədər olan təcrübə bunu deməyə əsas verir. Bunu sechki-2018.az saytına açıqlamasında qazaxıstanlı ekspert-jurnalist Nurqali Yusipbay deyib.

N.Yusipbay qeyd edib ki, Azərbaycanın seçki təcrübəsi və mövcud qanunvericilik seçkilərin demokratik və ədalətli keçirilməsi üçün münbit şərait yaradır: "Azərbaycan və Qazaxıstan qardaş ölkələrdir və dövlət başçıları bu qardaşlığı daha da inkişaf etdirirlər. Bu baxımdan, Azərbaycandakı seçkilər Qazaxıstan üçün də maraqlıdır. Biz bu seçkilərin Azərbaycan xalqının maraqlarına uyğun şəkildə keçiriləcəyinə əminik. Təbii ki, Azərbaycandakı mövcud vəziyyət və indiyə qədər olan təcrübə buna imkan verir".

Azərbaycanda seçkilərin yüksək standartlara uyğun keçirilməsi üçün bütün imkanların mövcud olduğunu qeyd edən N.Yusipbay bəzi xarici dairələrin Azərbaycanda keçirilən seçkilərə zaman-zaman müdaxilə etməsi, seçkilər zamanı Azərbaycan haqqında mənfi rəy yaratmaq cəhdlərini də xatırladaraq deyib: "Bu cür qüvvələrin məqsədi Azərbaycandakı məhsuldar seçkilərə kölgə salmaqdır. Lakin belə cəhdlər heç vaxt Azərbaycan xalqının öz gələcəyini seçməyinə təsir edə bilməyib. Əminik ki, bu dəfə də təsir edə bilməyəcək".

# Şahin Mustafayev: “Yeni Agentlik kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynayacaq”

***Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentliyin fəaliyyət istiqamətləri, sahibkarlığın inkişafında rolu barədə AZƏRTAC-ın suallarını iqtisadiyyat naziri Şahin Mustafayev cavablandırıb.***



***-Şahin müəllim, bu qurumun yaradılması hansı zərurətdən irəli gəlir?***

-Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri sistemli və ardıcıl olaraq davam etdirilir. Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir. Ötən dövr ərzində sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayı son 15 il ərzində 4,3 dəfə artıb, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 80 faizi, məşğulluqda payı isə 75 faizi ötüb.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara (KOS-lara) göstərilən texniki, maliyyə, hüquqi, metodiki və s. xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Bütün bunları, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə müəyyən edilmiş hədəfləri nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” 2017-ci il 28 dekabr tarixli Fərman imzalayıb. Fərmana əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb.

Bu sahədə təkliflər hazırlanarkən sahibkarlığın inkişafı və tənzimlənməsi sahəsində beynəlxalq təcrübədə tətbiq olunan mütərəqqi idarəçilik təcrübəsi araşdırılıb. Belə ki, bir sıra inkişaf etmiş ölkələrdə sahibkarlığın, xüsusilə KOS-ların inkişafı məqsədilə investisiyaların, müasir texnologiyaların, qabaqcıl idarəetmə təcrübəsinin və dövlət tənzimləmə mexanizmlərinin tətbiqinə, yüksək keyfiyyətli, rəqabət qabiliyyətli və ixracyönümlü məhsulların istehsalının stimullaşdırılmasına, sahibkarlıq subyektlərinə informasiya, hüquqi və iqtisadi məsləhət xidmətlərinin göstərilməsi və onların dövlət təşkilatları, yerli və xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasına yardım edən müvafiq təsisatlar fəaliyyət göstərir.

Azərbaycanda özəl bölmənin inkişafında xüsusi rolu olacaq Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin yaradılması dövlətimizin başçısının özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına verdiyi böyük önəmin, göstərdiyi davamlı diqqət və qayğının daha bir təzahürüdür.

***-Agentliyin əsas fəaliyyət istiqamətləri barədə məlumat verməyinizi xahiş edirik.***

-Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi qarşısında qoyulan əsas vəzifə ölkədə KOS-ların iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabətqabiliyyətliliyinin artırılması, inkişafının dəstəklənməsi, KOS-lara xidmətlərin göstərilməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, KOS sferasında dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Dövlətimizin başçının müəyyənləşdirdiyi vəzifələrə uyğun olaraq, Agentlik KOS-lara dəstək infrastrukturunun inkişafına kömək göstərməli, KOS-ların dəstəklənməsi məqsədilə yerli, xarici və beynəlxalq təşkilatların maliyyə vəsaitlərinin cəlb edilməsi, məqsədli proqramların hazırlanmasını və icrasının təşkilini təmin etməlidir.

Agentliyin daha bir fəaliyyət istiqaməti KOS-lara təlim-tədris, məsləhət, innovasiya, hüquq, maliyyə xidmətlərinə, həmçinin kadr və informasiya-kommunikasiya resurslarına çıxış, marketinq və satışa dəstək, layihələrin idarə olunması, korporativ idarəetmə və s. digər bu kimi beynəlxalq təcrübədə tətbiq edilən kommunikativ mexanizmlərin, eləcə də dövlət orqanları və təşkilatları tərəfindən göstərilən xidmətlərin vahid məkanda - “KOS evləri”ndə təşkili, sahibkarlara göstərilən dövlət xidmətlərinin elektronlaşdırılmasıdır. Bütün bu kommunikasiya və xidmətlər sahibkar məmnunluğunu təmin etməklə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun həyata keçiriləcəkdir.

Bundan başqa, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi dövlət satınalmalarında KOS-ların iştirakının genişləndirilməsinə istiqamətlənmiş tədbirlər, kiçik və orta sahibkarlıq subyektlərinin hüquqlarının müdafiəsi, müvafiq xarici və yerli təşkilatların KOS-ların dəstəklənməsinə cəlb edilməsi və sahəvi normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlayacaqdır.

***-Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin fəaliyyəti kiçik və orta sahibkarlara nə verəcək?***

-Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, kiçik və orta sahibkarlara göstərilən xidmətlərin vahid məkanda “bir pəncərə” prinsipi üzrə təşkili müsbət nəticələr verməklə, həmin xidmətlərin keyfiyyətinin və əlçatanlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Agentlik tərəfindən qeyd etdiyimiz fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərlə yanaşı, KOS-lar üçün digər tələb olunan xidmətlərin, xüsusilə bazar araşdırmalarının aparılması, elmi-tədqiqat və təhsil müəssisələri ilə əlaqələrin qurulması və qabaqcıl elmi-texnoloji yeniliklərin tətbiqi, sahibkarların istehsal etdikləri məhsulların satışına dəstək göstərilməsi, biznes inkubatorların fəaliyyətinin təşkili, sahibkarların müraciətlərinə baxılması və s. xidmətlərin “KOS evləri” vasitəsilə həyata keçirilməsi sahibkarlar üçün faydalı olacaq, onların səmərəli fəaliyyətinin təşkilində əhəmiyyətli rol oynayacaqdır.

Bununla yanaşı, KOS subyektlərinin hüquqi və biznes biliklərinə, mütəxəssis bankına və müxtəlif xarakterli məlumat mənbələrinə çıxış imkanlarının artırılması, dövlət xidmətlərindən bir məkanda istifadə imkanlarının yaradılması, biznes və tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi məqsədilə vahid məlumat portalı yaradılacaqdır.

***-Agentliyin fəaliyyətinin təşkili üçün hansı işlər görülür?***

-Hazırda Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin fəaliyyətinin təmin olunması üçün təşkilati tədbirlər həyata keçirilir və sahəvi normativ hüquqi bazanın formalaşdırılması istiqamətində işlər aparılır. Belə ki, artıq müvafiq normativ hüquqi sənədlərin layihəsi hazırlanıb və aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir.

Uzun müddət İqtisadiyyat Nazirliyində işləmiş və bu sahədə təcrübəyə malik Orxan Məmmədov Agentliyin icraçı direktoru təyin olunub.

Sonda bir daha vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının Prezidentinin müvafiq Fərmanla verdiyi tapşırıqların icrası olaraq, Agentliyin və onun tərkibində “KOS evləri”nin fəaliyyətə başlaması bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılmasına, institusional dəstək mexanizmlərinin daha da təkmilləşdirilməsinə, KOS-lar üçün zəruri bütün xidmətlərə vahid məkanda rahat çıxışın təmin edilməsinə şərait yaradacaqdır.



## Dövlət Gömrük Komitəsində görüş keçirilib

Martın 1-də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının “Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram”ının koordinatorlarının illik iclasında iştirak etmək üçün Azərbaycana gələn “Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram”ın ÜGT-dən olan baş koordinatoru Norbert Steyln, BMT NCİ-dən olan baş koordinatoru Ketil Ottersen, Cənubi Qafqaz və Qara Dəniz ölkələri üzrə regional koordinatoru Naida Chamilova ilə görüşüb.

SİA-nın məlumatına görə, qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Azərbaycan Gömrük Xidməti ilə Ümumdünya Gömrük Təşkilatı və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi arasında mövcud əlaqələrdən söhbət açıb, bu əlaqələrin bundan sonra daha da genişləncəyinə əminliyini ifadə edib. 2011-ci ildə Bakıda BMT-nin dəstəyi ilə Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Beynəlxalq Konfransa Azərbaycanın ev sahibliyi etdiyini məmnunluqla xatırladan Komitə sədri bu mötəbər tədbirin əhəmiyyətindən danışıb, ümumiyyətlə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində Azərbaycan Gömrük Xidmətinin son illər həyata keçirdiyi məqsədyönlü tədbirlərdən ətraflı bəhs edib.

Azərbaycan Gömrük Xidmətinin Ümumdünya Gömrük Təşkilatı ilə fəal əməkdaşlıq etdiyini bildirən DGK sədri Aydın Əliyev Azərbaycanda ÜGT-nin üç regional strukturu - Tədris Mərkəzi, Potensialın Gücləndirilməsi üzrə Avropa Ofisi və Kinoloji Mərkəzin yerləşdiyini, bu mərkəzlərdə bir sıra ölkələrdən ekspertlərin iştirakı ilə önəmli treninqlərin, seminarların keçirildiyini, gələcəkdə də bu tədbirlərin davam etdirilməsinin vacib olduğunu söyləyib. Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın Azərbaycana səfərlərini, dəfələrlə Prezident İlham Əliyevlə keçirdiyi görüşləri məmnunluqla qeyd edən Aydın Əliyev ÜGT ilə Azərbaycan Gömrük Xidməti arasında əlaqələrin gələcək perspektivlərindən danışıb.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, biznes mühiti və sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması, beynəlxalq ticarətin asanlaşdırılması və sürətləndirilməsi, tranzit potensialının gücləndirilməsi, turizmin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edən DGK sədri sözügedən sahələrdə mühüm nailiyyətlərin əldə olunduğunu diqqətə çatdırıb. “Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram”ın icrası çərçivəsində həyata keçirilən tədbirlərdən də söhbət açan Komitə sədri bu istiqamətdə işlərin ürəkaçan olmadığını, konteyner daşımalarına nəzarətin səmərəliliyinin artırılması və bu sistemin tətbiqi üçün işçi qrupunun yaradılacağını bildirib və gələcəkdə qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsini özündə ehtiva edən memorandumun imzalanmasının önəmini qeyd edib.

Səmimi görüşə görə təşəkkür edən “Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram”ın ÜGT-dən olan baş koordinatoru Norbert Steyln Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və ÜGT-nin “Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram”ının koordinatorlarının illik iclasının keçirilməsində dəstəyinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə minnətdarlığını bildirib. Norbert Steyln “Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram”ın icrası prosesində Azərbaycan gömrüyünə bundan sonra da tam dəstək göstərəcəklərini bildirib, eyni zamanda, Əfqanıstan və Pakistan gömrükçüləri üçün ÜGT-nin Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində sərhədlərin təhlükəsizliyi ilə bağlı təlimlərin keçirilməsinə şərait yaradılmasını xahiş edib. DGK sədri Aydın Əliyev Əfqanıstan və digər ölkələrin gömrük xidmətləri əməkdaşları üçün ÜGT-nin Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində bir neçə dəfə təlimlərin təşkil olunduğunu və bundan sonra da bu istiqamətdə lazımi dəstəyin göstəriləcəyini diqqətə çatdırıb. Görüş başa çatdıqdan sonra qonaqlar Dövlət Gömrük Komitəsində gömrük xidmətinin müasirləşdirilməsilə bağlı layihələr və “Hədəf” Mərkəzi ilə tanış olublar.

## Tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması istiqamətində tədbirlər keçirilib

Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ölkə vətəndaşlarının hüquqlarının qorunması, tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması, bu sahədə qanunvericiliyin tələblərinə dönmədən riayət olunmasının təmin edilməsi istiqamətində digər dövlət qurumları ilə əlaqəli şəkildə tədbirlər həyata keçirir.



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti sektorunda aparılmış monitorinqlər nəticəsində əmək müqavilələri olmadan işçilərin işə cəlb edilmələri faktları ilə bağlı 19 hüquqi və 3 fiziki şəxs barəsində həmin Agentlikdən daxil olmuş 18 material Baş İdarədə araşdırılıb.

Aparılmış araşdırmalar nəticəsində 3 hüquqi şəxs barəsində Cinayət Məcəlləsinin 162-1.1-ci (əmək müqaviləsi hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işləri başlanıb. "İ.N.V." MMC-nin vəzifəli şəxsləri barəsində istintaq edilən cinayət işinin istintaqı başa çatdırılaraq baxılması üçün aidiyyəti məhkəməyə göndərilib. Digər iki hüquqi şəxs barəsində başlanmış cinayət işləri üzrə istintaq yekunlaşmaq üzrədir.

Bununla yanaşı, araşdırmalar zamanı aşkarlanan qanun pozuntuları ilə bağlı digər prokuror təsir aktları da tətbiq edilib. Belə ki, 11 hüquqi şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək qanunvericiliyinin pozulması), 1 hüquqi şəxs barəsində isə həmin Məcəllənin 198.0.1-ci (əməyin mühafizəsi qaydalarının pozulması) maddələri ilə inzibati icraatın başlanması haqqında qərarlar qəbul olunub. Toplanmış materiallar baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə göndərilib, 12 halda fiziki şəxslərə və hüquqi şəxslərin rəhbərlərinə rəsmi xəbərdarlıq edilib. Yol verilmiş qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə Vergilər Nazirliyinə 9, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə isə 11 təqdimat göndərilib. Hazırda 5 hüquqi və 2 fiziki şəxs barəsində araşdırmalar davam etdirilir. Araşdırmalar zamanı aşkarlanan faktlar üzrə əvvəllər əmək müqaviləsi olmadan işə cəlb edilmiş işçilərlə əmək müqavilələrinin bağlanması təmin olunub.

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi qeyri-rəsmi məşğulluğun qarşısının alınması, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və vətəndaşların əmək hüquqlarının müdafiəsi istiqamətində aidiyyəti dövlət qurumları ilə əməkdaşlığı bundan sonra da davam etdirəcək.

## Tramp Qətər əmirini ölkəsinə dəvət edib

ABŞ prezidenti Donald Tramp Qətər əmiri Təmim bin Həməd Al Tanini aprel ayında ölkəyə səfər etməyə dəvət edib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, səfərlə bağlı təklif onlar arasında keçirilən telefon danışığı zamanı səsləndirilib. Məlumata əsasən, telefon danışığı ABŞ tərəfinin təşəbbüsü ilə baş tutub. Xəbərdə bildirilir ki, tərəflər danışıq zamanı Vaşinqtonla Doha arasında qarşılıqlı əlaqələri möhkəmləndirmək və inkişaf etdirməyin vacibliyini vurğulayıblar.



# XİN sözçüsü: "Kaliforniya Senatında erməni lobbisi ifşa olunub"

***"28 fevral 2018-ci il tarixində ABŞ-ın Kaliforniya ştatının paytaxtı Sakramento şəhərində erməni lobbisinin təşkilatçılığı ilə Kaliforniya Ştat Senatında Sumqayıt hadisələrinin 30 illiyinə, Kaliforniya ştatı ilə Ermənistan arasında iqtisadi əlaqələrin təşviqinə və Türkiyədən Kaliforniya sərmayələrinin çıxarılmasına həsr olunmuş dinləmələr keçirilib". Bu barədə SİA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.***




Təxminən 1 milyonadək erməninin yaşadığı Kaliforniyadakı erməni lobbisinin aramsız səylərinə və ayrı-ayrı senatorlara böyük məbləğlərdə pul xərcləməsinə baxmayaraq, Kaliforniya Ştat Senatının 40 üzvündən yalnız ikisi (həyat yoldaşı erməni olan senator Skot Vilk və erməni lobbisinin çoxdankı havadarı senator Entoni Portantino) tədbirə qatılıb. Dinləmələr haqda xəbər aldıqdan dərhal sonra Kaliforniyada fəaliyyət göstərən Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyəti və Amerika Azərbaycan Mədəniyyət Cəmiyyətinin fəal üzvləri, o cümlədən Həmid Azəri, Samir Lütvəliyev, Anar Usubov və digərləri səfərbər olunaraq, tədbirə qatılıblar.

Tədbirdə Azərbaycanda yaşadığını və Sumqayıt hadisələrinin canlı şahidi olduğunu iddia edən erməni lobbisinin nümayəndəsi ölkəmiz əleyhinə böhtan xarakterli çıxış edərək, 1988-ci ilin Sumqayıt hadisələrini özlərinin uydurduğu versiyada təqdim edib. Senator Portantino və Vilk də onlara natiqə dəstək verərək, erməni lobbisinə yarınmağa çalışıblar. Dinləmələrdən sonra prosedur qaydalarına uyğun olaraq, ictimaiyyət şərh və suallar verməyə dəvət edilib. Bu zaman Senator Vilk bəhanə edərək tədbiri tərk edib. Azərbaycan icmasının gənc üzvlərindən biri senator E.Portantinoya müraciət edərək, deyib: "Siz Sumqayıt hadisələrindən danışdınız. Halbuki bu hadisələri törədənlərin hamısı məsuliyyətə cəlb edilib. Onlardan biri də Qriqoryan adlı erməni idi. Ancaq 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda dinc azərbaycanlılara qarşı həyata keçirilmiş insanlıq əleyhinə dəhşətli cinayətin günahkarları indiyədək cəzasız qalıb. Siz niyə çıxışınızda bu faktları qeyd etmirsiniz? Xocalı qətliamı ilə bağlı dinləmələr keçirəcəksinizmi?" O, senatoru məsələyə birtərəfli yanaşmamağa çağırıb. Bu cür sualı gözləməyən senator E.Portantino pərt şəkildə məsələni araşdıracağını bildirib.

Digər icma nümayəndəmiz çıxışında əslən Qarabağdan olduğunu, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizdə 1 milyondan artıq insanın öz dogma yurdlarından didərgin düşdüyünü, hüquqlarının kobud şəkildə pozulduğunu qeyd edərək, "siz öz torpaqlarına qayıtmağı gözləyən o bir milyon insana nə deyə bilərsiniz?" sualını ünvanlayıb. Senator E.Portantino suala cavab verməkdən yayınıb.

Sonra daha bir soydaşımız, Kaliforniyanın nüfuzlu Kaliforniya Berkli Universitetinin tələbəsi çıxış edərək deyib: "Biz sizə sorğu ünvanlayaraq, Azərbaycan icmasından da bir nümayəndənin bu dinləməyə dəvət olunması və erməni nümayəndə ilə yanaşı çıxış etməsini xahiş etmişdik. Mənim sualım budur ki, hər iki tərəfin fikirlərini dinləmək əvəzinə siz niyə məsələyə birtərəfli yanaşaraq, yalnız erməni tərəfinə söz vermisiniz?"

Digər icma nümayəndəmiz sərt çıxış edərək, deyib: "Siz qırğınlar törətmiş avtoritar rejimlərdən danışdınız. Lakin hazırda Ermənistanda hakimiyyətdə olan rejimi qeyd etmədiniz. Halbuki Ermənistanı bu gün idarə edən və siz, senator, Ermənistana səfərlərinizdə görüşdüyünüz o insanlar vaxtilə yüz minlərlə dinc azərbaycanlıya qarşı qırğınlar törətmiş şəxslərdir. Burada yaşayan və fəaliyyət göstərən erməni lobbisi və Ermənistan vətəndaşları sizə bu cür yalan məlumatlar çatdırırlar və siz, senator, bütün Kaliforniyanı təmsil edən rəsmi nümayəndə kimi bu yalanları sorğulayacaq ilk şəxs olmalısınız. Biz, Kaliforniya sakinləri sizdən çox məyusuq. Biz azərbaycanlılar sizin dəstəklədiyiniz Ermənistan hökuməti tərəfindən qırğına məruz qalmışıq. Ancaq siz həqiqətlərə göz yumursunuz, qarşı tərəfi dinləmək, doğruları öyrənmək istəmirsiniz. Mən buna çox təəssüf edirəm və sizə görə çox utanıram."

Çıxış edən digər icma üzvləri, o cümlədən Xocalı soyqırımı şahidi Anar Usubov, senatorları məsələyə birtərəfli yanaşmamağa çağırıblar. Onlar Ermənistan-Azərbaycan münaqişəsi, Xocalı soyqırımı haqqında faktlar irəli sürərək, Azərbaycanın haqq səsini çatdırıblar. Dinləmələrdə iştirak edən, ABŞ-dakı radikal erməni lobbisinin aparıcı təşkilatları olan Amerika Ermənilərı Milli Komitəsinin və Amerika Erməni Assambleyasının (Azərbaycan icmasının belə sərt təpkisini gözləməyən) rəhbər şəxsləri söz alaraq, E.Portantinonu düşdüyü pis durumdan çıxarmağa çalışsalar da, əksinə dolaşıq fikirləri özlərini bir daha ifşa ediblər.

Senator E.Portantino icma üzvlərimizin ünvanladığı suallara çıxışlardan sonra cavab verəcəyini bildirsə də, tədbirin sonuna kimi səssiz qalaraq, heç bir münasibət bildirməyib və ümumu sözlərlə dinləmələri yekunlaşdırıb". Azərbaycan icması üzvlərinin çıxışlarına bu linkdə baxmaq olar: https://youtu.be/-iLqGNBEDYE

## Baş prokuror: Ukraynanın 1682 məmuru korrupsiya faktına görə saxlanılıb

***2018-ci ilin yanvar-fevral aylarında Ukraynanın Baş Prokurorluğu korrupsiya faktlarında ittiham olunan 1682 məmuru saxlayıb. AZƏRTAC xəbər verir ki, bu barədə mətbuata Ukraynanın baş prokuroru Yuriy Luçenko məlumat verib. Onun sözlərinə görə, hesabat dövründə məmurların rüşvət alması faktı üzrə artıq 362 iş məhkəməyə göndərilib.***



Baş prokuror qeyd edib ki, 2017-ci ildə korrupsiya faktına görə 9425 nəfər saxlanılıb, onlardan 1692-si həbs edilib. Y.Luçenko bəyan edib ki, Baş Prokurorluq korrupsiya hallarına qarşı amansız mübarizəsini davam etdirəcək.

## Azərbaycan Xalça Muzeyi ən yaxşı təcrübəyə layiq görülüb

***Azərbaycan Xalça Muzeyi Beynəlxalq Muzeylər Şurasının (ICOM) Beynəlxalq Sənədləşmə Komitəsi (CIDOC) tərəfindən qeyri-maddi mədəni irs məlumat bazası üzrə ən yaxşı təcrübəyə layiq görülüb. Xalça Muzeyindən AZƏRTAC-a bildirilib ki, muzeyin təcrübəsini Beynəlxalq Sənədləşmə Komitəsi (CIDOC) dünya muzeylərinə bir nümunə kimi təqdim edib.***



Beynəlxalq Sənədləşmə Komitəsi muzeyin sənədləşmə prosesində yaxşı təcrübə və bu sahədə inkişaf barədə məsləhətlər verir. Qeyd edək ki, bu komitə 1950-ci ildə Beynəlxalq Muzeylər Şurasının (ICOM) Beynəlxalq komitələrindən biri kimi yaradılıb. Beynəlxalq Muzeylər Şurası isə UNESCO yanında qeyri-hökumət təşkilatı statusunda yaradılan beynəlxalq qurumdur.

# Xalçaçılığın inkişafı ölkəmizin iqtisadiyyatını gücləndirir

***Tarixi qədim dövrü əhatə edən xalçaçılıq sənəti müxtəlif dönəmlərdə inkişaf dövrünü yaşayıb və yaşadığımız yüzillikdə dünya mədəni irsində yer alıb. Azərbaycanın vizit kartına çevrilən xalçaçılıq sənəti müasir həyatımızda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqımızın mədəniyyətinə göstərdiyi yüksək qayğısı nəticəsinə yeni dövrünü yaşayır. Azərbaycan xalçası müasir dövrümüzdə tədqiq edilir, onun tarixi, çeşidləri öyrənilir və milli sərvətimizə qarşı yaranan xoşagəlməz hallar aradan qaldırılır.***



"Xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir" - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev xalçaçılığın inkişafına da xüsusi diqqət yetirir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin bu sahənin daha da inkişafı ilə bağlı qəbul etdiyi qərarlar, bu baxımdan, xüsusilə, əhəmiyyətlidir. Ölkə Prezidenti İlham Əliyevin 7 dekabr 2004-cü il tarixli Sərəncamı ilə "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilib. Ölkə başçısı bu qanunun təsdiqindən az sonra, 2005-ci il fevralın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq etdirilməsi barədə Fərman imzalayıb. Bu sənədlər Azərbaycanda xalçaçılığın inkişaf tarixində yeni səhifələr açmaqla, onun daha da intensiv inkişafına misilsiz töhfə verib. 2010-cu il noyabr ayının 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Keniyanın Nayrobi şəhərində keçirilmiş V sessiyasında Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsi nümunələri siyahısına daxil edildi. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 may tarixli 2013 nömrəli Sərəncamı ilə Xalça Muzeyinin müasir binasının tikintisinə başlanıldı. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli 2032 nömrəli Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradıldı. Cəmiyyətin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə, bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsindən ibarətdir.

Qeyri-neft sektorunun inkişafının prioritet təşkil etdiyi müasir dövrdə dövlət başçısının "Azərxalça"nın yaradılması barədə Sərəncamı xüsusi əhəmiyyət daşıyır. İlkin mərhələdə yaradılması nəzərdə tutulan 10 filialdan biri Horadiz şəhərində artıq tam gücü ilə fəaliyyət göstərir. Bu filialda 150 toxucu, 10 nəfər inzibati-texniki işçi olmaqla, Füzuli rayonunun kəndlərindən 160 nəfər çalışır. Burada indiyədək 43 dəzgahda Qədim Azərbaycan çeşniləri əsasında müxtəlif ölçülü 70-ə yaxın xalça toxunub. 16 rayonunun müxtəlif çeşniləri tarixi ənənələr əsasında toxunur.

ASC-nin ilkin mərhələdə yaradılan Füzuli, Şəmkir və Quba kimi rayon filialları artıq tam gücü ilə fəaliyyət göstərir. Hazırda digər filialların binalarının tikintisi davam etdirilir. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verir və həmin sahəni stimullaşdırır.

Xalçaçılığın inkişafı iqtisadi cəhətdən də ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin dünyada təbliğində ən öndə gedən sənət növlərindən biridir. Artıq ilk məhsullar "Azərbaycan brendi" olaraq beynəlxalq sərgilərdə nümayiş olunur, əl ilə toxunmuş yeni Azərbaycan xalçalarına dünya bazarlarında tələbat böyükdür. "Azerbaijan carpet" ("Azərbaycan xalçası") ölkə brendinin yaradılması və xarici bazarlarda tanıdılması Azərbaycan xalçalarının xarici bazarlarda başqa ölkə brendləri adı altında satılmasının qarşısının alınması baxımından olduqca əhəmiyyətlidir. Bütün dünya Azərbaycan xalçasını, birmənalı olaraq, qəbul edir.



Azərbaycan xalçalarının Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qruplarına aid 300-dən çox xalça çeşnisi hazırlanıb və onların bir qismi istehsalatda tətbiq edilib. Dünya muzeylərində və kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalça və xalça məmulatları əsasında çeşnilərin hazırlanmasına üstünlük verilir. Milli sərvətimiz beynəlxalq səviyyədə təbliğ olunur və Sovet dönəmində Qafqaz xalçası kimi tanınan Azərbaycan xalçası bu gün öz adı ilə şöhrətlənib.

Azərbaycanda xalçaçılığın inkişafı üçün mühüm tədbirlər davamlı olaraq həyata keçirilir. Xalçaçılıq sənəti texniki-peşə məktəblərində, uşaq rəsm qalereyalarında və digər yerlərdə öyrədilir. Xalçaçılığın inkişafı istiqamətdə çox ciddi addımlar atılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Xalçaçılığın çox böyük potensialı var. Dövlət vəsait ayırıb, bütün bu fabriklər dövlət hesabına tikilir, həm dəzgahlar, həm də bütün digər avadanlıq dövlət vəsaiti hesabına alınır. Biz bütün istehsal zəncirini ardıcıllıqla yaratmalıyıq. Bu, çox müsbət irəliləyişdir. Xalçaçılıq bizim milli sənətimizdir, eyni zamanda, xarici bazarlara çıxışı olan məhsuldur, ölkəmizə valyuta gətirən sahədir, işsizliyi, xüsusilə, qadınlar arasında işsizliyi aradan qaldıran sahədir".

Xalçaçılıq sənətinin inkişafı istiqamətində ardıcıl işlər görülməkdədir. Bu məqsəd üçün dövlət büdcəsindən vəsait ayrılır. Azərbaycan Prezidentin məlum Sərəncamı ilə Qobustanda xalça istehsalı emalatxanası tikiləcək. Dövlət başçısının Sərəncamı ilə emalatxananın tikintisinə, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılmasına 2 (iki) milyon manat ayrılıb.

Fevralın 28-də Azərbaycan Prezidentinin imzaladığı Sərəncamla Şabran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması məqsədi ilə dövlət büdcəsindən 2 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. Göründüyü kimi, Azərbaycan Respublikasında xalça istehsalı müəssisələrinin sayının artırılması istiqamətində işlər davam edir. Görülən işlərin məntiqi nəticəsi yaxın zamanda xalça istehsalı və ixracının artacağına əminlik yaradır.

Dövlət başçısın imzaladığı daha bir Sərəncamı ilə xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, bu sahədə ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq olunub. Dövlət Proqramı "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 7 dekabr tarixli 799-IIQ nömrəli Qanununa əsasən hazırlanıb. Dövlət Proqramının əsas məqsədi xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və davamlı inkişafıdır.

Dövlət Proqramında xalçaçılığın xammal təminatının yaradılması, yeni iş yerləri yaradılmasının dəstəklənməsi, xalçaçılıq sahəsində, o cümlədən, yun emalı, yun və ipək ipliklərin hazırlanması, boyaq bitkilərinin emalı və boyaq maddələrinin istehsalı üzrə ixtisaslı kadr hazırlığının həyata keçirilməsi, regionların xalçaçılıq potensialının gücləndirilməsi, "Azerbaijan carpet" ("Azərbaycan xalçası") ölkə brendinin yaradılması, tanıdılması və inkişaf etdirilməsi və s. məsələlər nəzərdə tutulub.

Eləcə də, ölkə daxilində və xaricdə muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalçaları barədə kataloqun hazırlanması, Azərbaycan xalçalarının dünyaya tanıdılması məqsədilə xaricdə sərgilərin təşkil edilməsi, xalçaların müasir interpretasiyası və beynəlxalq əlaqələrin qurulması Dövlət Proqramında yer alıb.

Göründüyü kimi, Azərbaycanda xalçaçılığın inkişafı üçün zəruri normativ-hüquqi baza formalaşdırılıb, əlverişli iqtisadi mühit yaradılıb. Xalçaçılığın inkişafı və təbliği istiqamətində mühüm tədbirlər həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***

## Ruhaninin Azərbaycana səfərinin proqramı açıqlandı



İran İslam Respublikasının prezidenti Həsən Ruhaninin Azərbaycana səfərinin tarixi və proqramı açıqlanıb. SİA-nın verdiyi məlumata görə, H.Ruhanin səfəri bu il martın 28-nə planlaşdırılıb. Səfər zamanı İran prezidenti Bakıda bir sıra rəsmi görüşlər keçirəcək. Onun həmçinin Naxçıvana səfəri və Neftçalada Maşınqayırma Zavodunun açılışında iştirakı gözlənilir. Bir sıra ikitərəfli sənədlərin imzalanması da nəzərdə tutulub.

## "Paytaxtla bölgələr arasındakı fərq aradan qalxmaqdadır"



"2004-cü ildən uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrimizin siması əhəmiyyətli dərəcədə dəyişməkdədir, paytaxt Bakı ilə ilə bölgələr arasındakı fərq aradan qalxmaqdadır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Eldəniz Səlimov deyib. Onun sözlərinə görə, bölgələrlə paytaxt arasında fərqin minimuma enməsində təbii ki, inkişaf prosesi önəmli rol oynayır: "Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin, müxtəlif istiqamətləri əhatə edən layihələrin reallaşdırılması sayəsində respublikanın bölgələrində yeni müsbət reallıqlar yaranıb və hədəflərə çatmaq üçün sistemli tədbirlər həyata keçirilir. Bu hədəflər sırasında aqrar sektorda istehsalın artırılması xüsusi yer tutur. Respublikamızda aqrar sektorun inkişafı ilə bağlı qarşıya qoyulan məqsədlərə çatmaq üçün genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkədə 2004-cü ildən bəri uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının icrası çərçivəsində aqrar sektorda daha böyük həcmlərdə istehsal imkanlarının yaradılmasına hesablanan çoxsaylı layihələr həyata keçirilib, həmçinin perspektiv üçün də yeni layihələr nəzərdə tutulub. Son illərdə regionlarda müasir təsərrüfat subyektlərinin yaradılması ölkəmizdə aqrar sektorun yeni yanaşmalar əsasında inkişaf etdirilməsinə yaxşı nümunədir. Hazırda respublikamızda iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir".

# İzmirdə Ulu Öndər Heydər Əliyevin büstünün açılışı olub



Türkiyənin İzmir şəhərinin Karşıyaka rayonundakı Heydər Əliyev Parkında Ulu Öndərin büstünün açılışı olub. AZƏRTAC xəbər verir ki, açılış mərasimində rəsmi şəxslər, millət vəkilləri, yerli ictimaiyyətin tanınmış nümayəndələri, QHT və KİV təmsilçiləri, o cümlədən Qarabağ müharibəsi qaziləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.



Ulu Öndər Heydər Əliyevin və bütün şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub. Sonra Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, millət vəkilləri Qənirə Paşayeva və Sona Əliyeva, Karşıyaka rayonun bələdiyyəsinin sədri Hüseyin Mutlu Akpınar, İzmirdəki Azərbaycan Mədəniyyət və Dayanışma Dərnəyinin sədri Mülazim Pahsa və başqalarının çıxışları dinlənilib.

Çıxışlarda Ümummilli lider Heydər Əliyev şəxsiyyətinin ucalığından, Ulu Öndərin Azərbaycan və Türkiyənin inkişafı naminə həyata keçirdiyi beynəlxalq layihələrin əhəmiyyətindən, xalq arasında tükənməz nüfuzundan danışılıb. Vurğulanıb ki, yüksək şəxsi keyfiyyətləri ilə el məhəbbəti qazanan Heydər Əliyev təxminən yarım əsrə yaxın dövrü əhatə edən siyasi fəaliyyətinin Azərbaycanın inkişafına və yüksəlişinə sərf edib. Gördüyü böyük tarixi işlərin nişanələri əsrlərə yadigardır.

# “Avstriya Azərbaycanda həyata keçirilən nəqliyyat və İKT layihələrinə xüsusi maraq göstərir”



***Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Vyanaya rəsmi səfəri çərçivəsində Avstriyanın nəqliyyat, innovasiya və texnologiyalar naziri Norbert Hofer ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə müxtəlif sektorlar üzrə əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair səmərəli müzakirələr aparılıb.***

Ramin Quluzadə ölkəmizin təşəbbüsü ilə son illərdə həyata keçirilən regional əhəmiyyətli infrastruktur layihələri, o cümlədən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər barədə geniş məlumat verib. Bununla yanaşı, İKT və rabitə sahəsində milli səviyyədə həyata keçirilən proqram və layihələr, o cümlədən Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Trans-Avrasiya Super İnformasiya Magistralı layihəsinə toxunub. Nazir bu çərçivədə Avstriya şirkətlərini Azərbaycanın İKT və nəqliyyat sektorlarında daha fəal olmağa, öz məhsul və həllərini hər il Bakı şəhərində təşkil olunan “Bakutel” Beynəlxalq Telekommunikasiya Sərgisində nümayiş etdirməyə dəvət edib.

Norbert Hofer Avstriyanın Azərbaycanda həyata keçirilən nəqliyyat və İKT layihələrinə xüsusi maraq göstərdiyini söyləyib və bu xüsusda, iki ölkənin müvafiq qurumları və özəl sektor nümayəndələri arasında temasların intensivləşdirilməsini təklif edib.

Tərəflər ikitərəfli əməkdaşlığın hüquqi bazasını təkmilləşdirmək məqsədilə iki nazirlik arasında yeni əhatəli Anlaşma Memorandumunun hazırlanaraq imzalanması üzrə razılıq əldə ediblər. Həmçinin ikitərəfli əməkdaşlığın tənzimlənməsi üçün İKT və nəqliyyat məsələləri üzrə vahid işçi qrup yaradılması qərara alınıb.

Ramin Quluzadə Azərbaycanın haqlı müraciətinə cavab olaraq, “Austria Telekom” şirkətinə məxsus Bolqarıstanın “M-Tel” mobil operatorunun Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyət göstərən “Karabakh Telecom”la rouminq sazişini ləğv etməsindən məmnunluğunu ifadə edib.

Görüş zamanı Ramin Quluzadə, həmçinin Bakı şəhərinin 2025-ci ildə “Ekspo” Ümumdünya Sərgisinə ev sahibliyi etməklə bağlı namizədliyi barədə məlumat verib və Avstriyanı namizədliyimizi dəstəkləməyə çağırıb.

# Afrin terrorçuları Türkiyədə həbs edilib

Türkiyədə Afrindən olan terrorçular həbs edilib. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, onlar özlərini dinc sakin kimi təqdim etməyə çalışıblar. Terrorçular hərbçiləri aldatmaq istəyərək, çoban olduqlarını deyiblər. Saxlanılanların telefonlarında onların PKK terror təşkilatının Suriya qolu olan YPG ilə əlaqələrini sübut edən məlumat aşkarlanıb. Onlar məhkəmə zalında həbs ediliblər. Həbs edilən terrorçuların sayının 2 nəfər olduğu bildirilir.

# Qubada “700 min ağac əkək” kampaniyası uğurla davam edir



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar “700 min ağac əkək” kampaniyası çərçivəsində YAP Quba rayon təşkilatı tərəfindən 1 mart tarixində ağacəkmə aksiyasının II mərhələsinə start verilib. Ağacəkmə aksiyası uğurla davam etdirilir. Aksiyada YAP Quba rayon təşkilatının fəalları, ilk ərazi partiya təşkilat sədrləri və YAP üzvləri iştirak edib. Aksiyada YAP Quba rayon təşkilatının 104 ilk partiya təşkilatı cəlb olunub və 3700 ağac əkilməsi nəzərdə tutulub. Məlumat üçün bildirək ki, ağacəkmə kampaniyasının I mərhələsində 4305 ağac əkilmişdir ki, bunlar əsasən, Eldar şamı, tuya və fındıq ağaclarıdır. Aksiyanın II mərhələsi may ayının 15 kimi davam etdiriləcək.

***NƏZAKƏT***

# Qida Təhlükəsizliyi Agentliyi geniş maarifləndirmə aksiyalarına start verib




Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (QTA) geniş maarifləndirmə aksiyalarına start verib. Qida Təhlükəsizliyi Agentliyinin Kommunikasiya və İnformasiya Texnologiyaları şöbəsindən AZƏRTAC-a bildirilib ki, əhali arasında genişmiqyaslı və uzunmüddətli maarifləndirmə aksiyalarına martın 1-dən etibarən start verilib.

Son illər respublikamızda sosial-iqtisadi sahədə, o cümlədən dövlət idarəetməsi sahəsində genişmiqyaslı islahatlar həyata keçirilir. Bu islahatların tərkib hissəsi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yeni qurum, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi təsis edilib. QTA-nın yaradılması ilə vətəndaşlara göstərilən qayğının səviyyəsi yeni, daha keyfiyyətli mərhələyə qədəm qoyub. Qida təhlükəsizliyi sahəsində maarifləndirmə işlərinin həyata keçirilməsi agentliyin prioritet fəaliyyət istiqamətlərindən hesab olunur.

Bu sahədə maarifləndirmə aksiyalarına başlayan agentlik “5 addımda Qida Təhlükəsizliyi”, “Qida zəncirinin halqaları”, “Uşaqlar üçün yemək çantasının hazırlanma qaydaları” başlıqlı sosial məsuliyyət layihələri həyata keçirəcək. Layihənin məqsədi hər yaş qrupundan olan qida məhsulu istehlakçılarına qida təhlükəsizliyi anlayışını izah etmək, Azərbaycan gələcəyinin təməli hesab edilən azyaşlı uşaqlara ilkin gigiyena norma və qaydalarını aşılamaqdan ibarətdir.

Hazırlanan maarifləndirmə materiallarında “tarladan süfrəyə” prinsipi ilə həyata keçirilən qida zənciri, uşaqlar üçün yemək çantası hazırlayan zaman diqqət edilməsi vacib olan məqamlar, məişətdə sadə qaydalarla qidanın təhlükəsizliyinə əməletmə qaydaları öz əksini tapıb.

Qida təhlükəsizliyi terminlərini sadə və anlaşılan dillə, ən geniş auditoriyaya çatdırmağı hədəf götürən agentlik, bu layihə çərçivəsində məlumatlandırıcı materialları təhsil müəssisələrində, insanların daha çox vaxt keçirdiyi ictimai iaşə, xidmət obyektlərində və sosial şəbəkələrdə yayacaq.

# Bakıda 170 min tonadək dizel yanacağı istehsal olunub

Bu ilin yanvar ayında Bakıda 167,8 min ton dizel yanacağı istehsal edilib. Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, hesabat ayında paytaxtda 109,1 min ton avtomobil benzini, 18,1 min ton neft-kimya sənayesində istifadə üçün benzin, 48,5 min ton ağ neft, 4,1 min ton yanacaq mazutu, 1,7 min ton sürtgü yağları, 25,5 min ton neft bitumu və 21,1 min ton neft koksu istehsal olunub.

# Slovakiyanın mədəniyyət naziri jurnalistin ölümünə görə istefa verib

Slovakiyanın mədəniyyət naziri Marek Madariç fevralın 28-də gözlənilmədən istefa verib. AZƏRTAC xəbər verir ki, hakim Slovakiya Sosial-Demokratlar Partiyasına (SMER) mənsub olan nazir vəzifədən getməsini üç gün öncə nişanlısı ilə birlikdə qətlə yetirilmiş araşdırmaçı jurnalist Yan Kuçiakın ölümü ilə əlaqəli olduğunu bəyan edib. Hökumətdə mediaya ən yaxın nazirliyin onun rəhbərliyi altında olduğunu qeyd edən M. Madariç baş verən hadisədən sonra öz nazir kreslosunda rahat otura biləcəyini təsəvvür etmədiyini vurğulayıb.

Müxalifət partiyaları isə daxili işlər nazirinin də istefasını tələb ediblər. Onlar naziri Yan Kuçiaka qarşı konkret hədələrin olmasına baxmayaraq, jurnalisti mühafizə etməməkdə günahlandırıblar. Qeyd edək ki, www.aktuality.sk saytının əməkdaşı olan 27 yaşlı araşdırmaçı jurnalist Yan Kuçiak fevralın 25-də nişanlısı ilə birlikdə qətlə yetirilib.

# Kazimirovun KVAZİBARIŞIĞI - erməni işğalçıları üçün "müqəddəs yazı"

***Bu yaxınlarda erməni millətçiləri qondarma "Artsax azadlıq hərəkatı"nın 30 illiyini təntənə ilə qeyd etməyə cəhd göstərdilər. Mən "təntənəli bayramlar" haqqında məlumat tapmaq üçün internetdə axtarış sistemlərini ələk-vələk etdim. Kiçik yığıncaq haqqında bir-iki qeyddən savayı heç nə tapmadım. Onların birində hansısa Artsaxın müstəqilliyi haqqında hansısa memorandum qəbul etmiş bir qrup adamın Moskvada yığışmasından söhbət gedirdi. Oxucu soruşur, bəs oraya yığılan kimlər idi? Adları sadalamaq istəmirəm, çünki buna layiq deyillər. Bir sözlə, işğalçılar və onların züy tutanları. Sadəcə "X" işarəsini basıb brauzerdə bu səhifəni bağlamaq və daha real mütaliəyə keçmək olardı. Lakin qondarma memorandumun məntiqsizliyi yan ötməyə qoymadı.***

Bax belə, yığıncaq iştirakçıları "azadlıq hərəkatının" 1988-ci ildən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında müraciətlə başlandığını söyləyirdilər - əlbəttə, onu əvvəlcə Azərbaycandan ayırmaqla. Diqqət yetirək, AZADLIQ sözü işlədilir. Yəni onlar, görürsünüz ki, ayrıca respublika deyil, Ermənistana BİRLƏŞDİRİLMƏYİ istəyirdilər. Birləşməyi kimlərin istəməsi aydındır, şübhəsiz ki, bu, Qarabağın sadə erməniləri deyil, "baş ofisi" Yerevanda yerləşən, "böyük Ermənistan" xülyaları ilə yaşayan erməni millətçiləri idi. Başqasının torpağını qoparmaq və onu özününkünə (hərçənd özününkü olub-olmaması da, indiki Ermənistanın Azərbaycanın tarixi torpaqlarında yaradıldığı nəzərə alınsa, mübahisəli məsələdir) birləşdirmək arzusunu "azadlıq hərəkatı" adlandırmaq absurddur. Doğrudur, erməni millətçilərində təfəkkür həmişə absurd olub. Ona görə də biz bunu onlar üçün yazmırıq. Faydasızdır. Bunu həmin yığıncağın özünü politoloq, diplomat hesab edən, guya həqiqət tərəfdarları olan iştirakçıları üçün yazırıq.

Beləliklə, 1988-ci ildə proses qondarma "azadlıq hərəkatı" ilə deyil, Ermənistan SSR tərəfindən Azərbaycan ərazilərinin əsl ilhaqı ilə başlandı. Sonra, bu cənablar yazırlar ki, Azərbaycan 1918-ci ildə guya Ermənistana və Dağlıq Qarabağa ərazi iddiası irəli sürüb. Təəccüblüdür, onlar buna qədər nə düşünüblər... Dağlıq Qarabağ heç vaxt ermənilərin olmayıb. Abbasqulu ağa Bakıxanovun təsvir etdiyi Qarabağ xanlığında XVIII əsrin hadisələrində ermənilərin oraya köçürülməsindən əvvəl və sonra bu xanlığı yalnız azərbaycanlılar idarə ediblər. Bütün bunları əks etdirən sənədlər Rusiya arxivlərindədir. Özü də hansı iddiadan danışmaq olar ki, hələ o zaman Azərbaycanın qərb ərazilərinin böyük hissəsi Ermənistana keçmişdi, bu barədə də kifayət qədər sənədlər var. Biz artıq adət etmişik ki, ermənilər özləri tarix uydurur, sonra öz yalanlarına özlərini inandırır və başqalarını da buna inanmağa məcbur etməyə cəhd göstərirlər. Lakin söhbət tarixi məqamlarda deyil, başqa məsələdədir...



Ermənistan KİV-ləri separatçıların yığıncağında Vladimir Kazimirovun - 1992-1996-cı illərdə ATƏT-in Minsk Qrupunun həmsədrinin - iştirakını xüsusi sevinclə qeyd ediblər. İşğalçıların izlərini ört-basdır etməkdə, müsaidənizlə deyim, bu diplomatın xidmətləri hamıya məlumdur. O, özünü sülh tərəfdarı kimi göstərir. Lakin Kazimirovun KVAZİBARIŞIĞI həmişə erməni millətçilərinin əsl məqsədini - Azərbaycan ərazilərinin Ermənistan tərəfindən, əlbəttə, başqalarının köməyi ilə işğalının həqiqi mahiyyətini gizlətməyə yönəlib.

Necə olur ki, Azərbaycanın işğal edilmiş ərazilərinin beynəlxalq hüquq əsasında azad olunmasına dəvət edilmiş sabiq həmsədr işğalın ildönümünün faktiki qeyd olunduğu yığıncaqda iştirak etməyi özünə rəva görə bilir. Azərbaycan öz ərazisindən erməni qoşunlarının çıxarılmasını ciddi tələb edəndə, münaqişənin hərb yolu ilə həllindən qətiyyətlə danışanda Kazimirov fəallaşdırılır. O da müəllifi olduğu KVAZİBARIŞIĞINI yada salır. Yeri gəlmişkən, 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin hücum əməliyyatları Ermənistan rəhbərliyini çox qorxuya salanda Kazimirov yalançı sülhün baş tutması üçün əlindən gələni etmişdi. O zaman onun vəzifəsi münaqişəni dondurmaq idi. Əgər o, ədalətli vasitəçi olsaydı, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması barədə BMT qətnamələrinin icrasına nail olardı, heç olmasa, buna cəhd göstərərdi. Bax, onda əsl sülhə nail olunardı.

2016-cı ildə Azərbaycan Ordusunun uğurlu aprel əks-hücum əməliyyatı zamanı Kazimirov yenə arenada göründü. Şükür Allaha, bu dəfə vasitəçi kimi yox. Lakin o, öz ampluasında idi: Azərbaycanı gərginlik eskalasiyasına və digər mövcud olmayan günahlara görə ittiham etdi. Kazimirov yaxşı başa düşür ki, Azərbaycan 1994-cü ildəki Azərbaycan deyil. Azərbaycan Ordusu erməni işğalçılarını ildırım zərbəsi ilə Yer üzündən silməyə qadirdir. Buna görə də, Kazimirov düşünür ki, hay-küy salmaq, insanları çaşdırmaq, qəbul edilmiş beynəlxalq sənədlərin mahiyyətini təhrif etmək lazımdır. Uzaq 1994-cü ildə onun məqsədi müvəqqəti barışıq bəhanəsilə Azərbaycana öz ərazilərini heç zaman hərb yolu ilə geri almağa imkan verməmək idi. Bu kvazibarışıq əslində regionu 25 ildir gərginlik altında saxlayır. Əgər Kazimirov əsl sülh istəsəydi, heç olmasa BMT-nin qətnamələrinin icrasına nail olmağa çalışardı. Bunun əvəzinə o, öz sazişini uydurdu ki, bu da heç nəyi dəyişmədi. İndi isə o, hər dəfə ermənilərin göstərişi ilə deyilənləri təkrarlayır və Azərbaycanı öz torpaqlarına hərb yolu ilə almaq fikrinə görə ittiham edir. Lakin diplomatik cəhdlər nəticə vermirsə, istənilən beynəlxalq sənəd torpaqları işğal edilmiş ölkənin onu güc yolu ilə almaq hüququnu təsdiqləyər.

Erməni millətçiləri yaxşı bilirlər ki, heç bir müstəqil Qarabağ yoxdur və olmayacaq. Onlar həmişə vahimə içində yaşamalı və qorxmalıdırlar ki, günlərin birində Azərbaycan öz zərbəsi ilə bütün işğalçı ordunu darmadağın edəcək. Qoy kazimirovlar Azərbaycanın hansısa kvazibarışığa razılıq verəcəyinə ümid bəsləməsinlər.

## Pavel Manukyan: "Ermənistanda mart hadisələri günahkarlarının cəzasız qalması ölkəni cinayətkarların idarə etməsinin sübutudur"



Ermənistanda 2008-ci il martın 1-də baş vermiş qanlı hadisələrin 10-cu ildönümü qeyd olunur. "Sasna Srer" silahlı qruplaşmasının üzvlərindən olan Pavel Manukyan həmin gün yaşananlarda Serj Sarkisyan və komandasının birbaşa əli olduğunu açıqlayıb. O, hazırkı cinayətkar rejimin məhkəmə qarşısına çıxarılmasını tələb edib.

AZƏRTAC xəbər verir ki, "Sasna Srer" silahlı qruplaşmasının məhkəmə prosesi zamanı qrupun fəallarından biri olan Pavel Manukyan Ermənistan hakimiyyətində olanların əllərinin insanların qanına bulaşdığını söyləyib. "İmkan verməyin ki, bundan sonra da sizi məhv etsinlər. Əmin olun, bütün bəlalarımızın kökündə Serj Sarkisyan və onun cinayətkar dəstəsi dayanır", - deyə o əlavə edib. On il əvvəl baş verənlərdə Serj Sarkisyan və komandasının birbaşa əli olduğunu, bunu faktlarla sübut edə biləcəyini deyən P.Manukyan qeyd edib ki, Ermənistanının əsl bəlası 2008-ci ildən sonra başlayıb. Həmin ilin martında hakimiyyəti zorla ələ keçirən cinayətkar S.Sarkisyan hökuməti bu müddətdə ölkəni tamamilə iflasa uğradıb və təcrid vəziyyətinə salıb. Ona görə də P.Manukyan fəalların deyil, hazırkı cinayətkar rejimin məhkəmə qarşısına çıxarılmasını tələb edib. O bildirib ki, Ermənistanda mart hadisələri günahkarlarının cəzasız qalması ölkəni cinayətkar dəstənin idarə etməsinin sübutudur. Bu açıqlamalarından sonra "Sasna Srer"in üzvü məhkəmə zalından beş saatlıq kənarlaşdırılıb.

Ermənistan mətbuatı da 1 mart hadisələrinə geniş yer ayırıb. Hazırlanan videomateriallarda bildirilir ki, 2008-ci ilin martında baş verənlərə görə əsas məsuliyyət Serj Sarkisyanın üzərinə düşür. Çünki həmin vaxt məhz o, güc strukturlarının İrəvana yeridilməsində birbaşa səlahiyyətə sahib olub. Dövlət terrorunu rəhbər şəxslər əllərində olan bütün resurslardan istifadə edərək törədiblər. Bu müddətdə isə heç nə dəyişməyib. On il əvvəl vətəndaşlar hakimiyyətin necə əleyhinə idilərsə, bu, indi də elədir. Hökumət vəzifəsini zor gücünə ələ keçirən cinayətkar dəstə Ermənistanı ancaq fəlakətə sürükləyib.

Xatırladaq ki, 2008-ci il martın 1-də İrəvanda baş verən qanlı iğtişaşlarda 10 nəfər dinc sakin öldürülüb, 200-ü müxtəlif dərəcəli xəsarət alıb, daha 100 nəfər isə həbs edilib. 1 mart hadisələrinin öyrənilməsi və faktların toplanması üzrə qrup hələ də hadisələrdə əli olanları üzə çıxarmayıb.

## Brussels News: Dünya ictimaiyyəti erməni təcavüzünə ədalətli qiymət verməlidir

***Azərbaycanın müasir tarixinin ən qanlı və faciəvi hadisəsindən 26 il ötüb. Bu barədə Belçikanın "Brussels News" onlayn qəzetində Xocalı soyqırımına həsr olunmuş məqalədə deyilir. /Trend/ Məqalədə qeyd olunur ki, Xocalı qırğını bir çox ölkə və beynəlxalq təşkilat tərəfindən tanınmış soyqırımıdır: "Hüquq müdafiə təşkilatları və beynəlxalq KİV-lərin hesabatlarına əsasən, 1992-ci il 26 fevral hadisələri zamanı Xocalıda yüzlərlə dinc yalnız azərbaycanlı olduqlarına görə, xüsusi qəddarlıqla qətlə yetirilmişdi".***

Müəllif vurğulayır ki, bu gün Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün var. On minlərlə azərbaycanlı Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalıb və öz doğma torpaqlarına qayıda bilmir.




Məqalədə o da bildirilir ki, Azərbaycan dünya ictimaiyyətinin Xocalı faciəsi haqqında məlumatlandırılması üçün "Xocalıya ədalət" beynəlxalq kampaniyasını işə salıb. Bugünkü gün 15-dən çox ölkə Xocalı soyqırımını tanıyıb: "2015-ci ildə Avropa İnsan Haqları Məhkəməsi etnik təmizləmənin qurbanı olan və öz torpaqlarına qayıtmaq hüququndan məhrum edilən yeddi azərbaycanlının xeyrinə qərar verdi və onlara Dağlıq Qarabağdakı əmlakına görə təzminat ödəmək hökmü çıxardı. Bu, erməni aqressiyasına hüquqi qiymət verilməsinə nail olmaq yolunda növbəti addım idi". Məqalə o fikirlə başa çatır ki, Ermənistanla Azərbaycan arasında sülh beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həqiqi səbəbləri və nəticələrinə ədalətli qiymət verməsinədək və münaqişənin ən qanlı səhifələrindən biri - Xocalı faciəsinə göz yumanadək uzaq perspektivdə qalacaq.

## Rasim Musabəyov: "BMT üçün əsas odur ki, qan tökülməsin"



"Ümumiyyətlə, BMT Baş Assambleyası Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasını ATƏT-in Minsk Qrupu həmsədrlərinə həvalə edib". Bunu SİA-ya açıqlamasında millət vəkili, politoloq Rasim Musabəyov deyib. Politoloqun sözlərinə görə, hazırda da ATƏT-in adından Minsk Qrupu çıxış edir: "BMT Baş Assambleyası üçün əsas odur ki, müharibə olmasın və qan tökülməsin. Bu baxımdan Minsk Qrupu vəziyyəti nəzarətdə saxlayır. Hesab edirəm ki, buna o qədər də əhəmiyyət verməyə dəyməz. BMT belə şeylərə çoxdan öyrəşib. Bunlar üçün əsas odur ki, konkret bu məqamda, vaxtda qan tökülməsin".

R.Musabəyov bəzi qeyri-hökumət təşkilatlarının Azərbaycana qarşı sərgilədiyi anti-Azərbaycan kampaniyasında da münasibət bildirərək deyib ki, bunların apardığı siyasətin heç bir önəmi yoxdur. Qeyd edək ki, BMT-nin baş katibi Antoniu Quterreş BMT-nin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair səylərini davamlı olaraq dəstəklədiyini təsdiqləyib.

# “Biz hərbi əməliyyatlara başlamağa məcbur olacağıq”

## Azər Badamov: “Azərbaycanın başlayacağı hərbi əməliyyatlar daha sürətli və tez başa çata bilər”



Müsahibimiz millət vəkili Azər Badamovdur

***- Azər müəllim, KİV-lərdə yazılanlara görə, Sarkisyanla Dağlıq Qarabağ rejiminin rəhbəri Bako Saakyan arasında ciddi qarşıdurmalar yaranıb. Sizcə, indiki məqamda bu qarşıdurmalarda qalib kim ola bilər?***

- Ermənistanın hərbi xuntası ilə Dağlıq Qarabağ rejiminin rəhbərliyi arasında hər hansı bir toqquşmanın olub-olmamasından asılı olmayaraq, Azərbaycan istənilən zaman öz ərazisinin bütövlüyünü təmin etmək məqsədiylə erməni işğalı altında olan ərazilərdə genişmiqyaslı hərbi əməliyyatlara başlaya bilər. Əgər Dağlıq Qarabağ rejimi ilə Ermənistan hakimiyyəti arasında toqquşmalar baş verərsə, Azərbaycanın başlayacağı hərbi əməliyyatlar daha sürətlə və tez başa çata bilər. Çünki bu gün işğal altındakı ərazilərimizdə, əsasən, Ermənistan hərbiçiləri yerləşdirilmişdir və Dağlıq Qarabağın bütün iqtisadiyyatını Ermənistan təmin edir. Bu gün B.Saakyanın rəhbərlik etdiyi separatçı rejimi saxlayan birbaşa Ermənistandır. Əgər Ermənistan Dağlıq Qarabağdakı separatçı rejimin təminatını kəsərsə, sabahısı gün Dağlıq Qarabağdakı ermənilər yalvara-yalvara Azərbaycanın yanına qaçacaqlar. Bəlkə də onlar, belə bir məqamı gözləyirlər ki, Azərbaycanla barışsınlar. Çünki ordakı həyat şəraiti heç də insanların yaşaması üçün uyğun deyil. Azərbaycandakı inkişafı və müasirliyi onlar yaxşı dərk edirlər və əgər separatçılar təzyiqləri aradan götürüb, sadə insanlara seçim imkanı verərlərsə, düşünürəm ki, sabahısı gün Qağlıq Qarabağ ermənilərin hamısı bizə yalvaracaqlar.

***- Sizcə, qondarma Dağlıq Qarabağ rejiminin “rəhbərliyi” ilə Ermənistanın hərbi xuntası arasında həlli mümkün olmayan qarşıdurmalar, silahlı toqquşmalar baş verərsə, Azərbaycan beynəlxalq hüquq normalarına əsasən, Dağlıq Qarabağa qoşun yeridə bilərmi? Bu halda, beynəlxalq güclərin mövqeyi nədən ibarət ola bilər?***

- Qeyd etdiyim kimi, Dağlıq Qarabağda hərbi əməliyyatlara başlanması Azərbaycanın müstəsna hüququdur. Çünki Azərbaycanın ərazi bütövlüyü BMT, ATƏT və digər beynəlxalq təşkilatlar tərəfindən tanınılıb və bütün dünya ölkələri ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşırlar. Bu baxımdan, Azərbaycan öz torpaqlarından separatçıların, terroristlərin yığışdırılmasına tam hüquqludur və istənilən zaman hərbi müdaxiləyə başlaya bilər. “Bu zaman beynəlxalq güclərin mövqeyi necə olacaq” sualınıza isə cavab vermək istəyirəm ki, beynəlxalq güclər bizə əmr yox, ancaq tövsiyələr verə bilər. Bu günə qədər hərbi əməliyyatlara başlamamığımızın kökündə elə beynəlxalq güclərin tövsiyələri və sülh yolu ilə münaqişənin tənzimələnməsi üçün təklifləri olubdur. Biz yenə müəyyən təklifləri müzakirə edirik, danışıqlara gedirik və qan tökülməsinin tərəfdarı deyilik. Amma Ermənistan konstruktiv mövqe sərgiləməsə, biz hərbi əməliyyatlara başlamağa məcbur olacağıq. Heç bir beynəlxalq güc də Azərbaycana müdaxilə edə bilməz və əgər bu, baş verərsə, dünya da bunu hərbi təcavüz kimi qarşılayar və biz onlara da hərbi gücümüzlə cavab verməli olacağıq. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sıarasındadır və hər zaman öz ölkəsinin təhlükəsizliyini təmin etmək iqtidarındadır.

***- Ermənistanda orduya getməkdən imtina açıq bir müstəviyə keçirilib. Bu baxımdan, demək olarmı ki, Sarkisyan və onun komandası ordudakı boşluğu doldurmaq üçün xarici muzdlulardan yararlanmağa cəhd etsin?***

- Ermənistanda orduya çağırışdan yayınma halları adiləşmişdir. Gənclər orduya getmək yaşına çatan kimi, ölkədən qaçırlar. Bu gün erməni ordusu əsgər çatışmazlığı problemini yaşayır və düşünürəm ki, erməni ordusundakı bu böhran daha da dərinləşəcəkdir. “Sarkisyan ordudakı boşluğu doldurmaq üçün muzdlulardan yararlanmağa cəhd edərmi” sualınıza cavab olaraq, bildirmək istəyirəm ki, belə hallar 90-cı illərdə də baş verməşdi. Əgər müharibəni başlasaq, yenə də müəyyən qisim mzdluları ermənilər orduya cəlb edə bilər. Amma onların sayı bir o qədər çox olmayacaqdır. Çünki bugünkü Ermənistanın iqtisadi durumu faktiki olaraq, ordu saxlamaq iqtidarında deyil. Ermənistan ordusunda aclıq və şəraitsizlikdən özbaşınalıq baş alıb gedir. Zabit və əsgərlərin yeməklərini sataraq, pul qazanma halları adiləşmişdir. Belə bir şəraitdə, hansı muzdlunun gətirilməsindən danışmaq olar? Həm də Azərbaycan Silahlı Qüvvələrinin sərəncamında olan müasir silahlar hər bir erməni muzdlusunu və hərbiçisini darmadağın etməyinə qadirdir.

**GÜLYANƏ**

# Azərbaycan Dillər Universitetində (ADU) Germanistika İnstitutunun açılış mərasimi keçirilib



Martın 1-də Azərbaycan Dillər Universitetində (ADU) Germanistika İnstitutunun açılış mərasimi keçirilib. Germanistika İnstitutunun fəaliyyəti çərçivəsində seçilən tələbə və müəllimlərin Almaniyada müxtəlif ixtisasartırma kurslarında iştirakı, almaniyalı professorların ADU-da mühazirələrinin təşkili, ADU müəllimlərinin Almaniyada fəaliyyəti nəzərdə tutulur. İnstituta Azərbaycan ədəbiyyatının böyük təbliğatçısı, Almaniyanın Vürsburq Universitetinin və ADU-nun professoru, Osvold fon Volkenştayn Cəmiyyətinin prezidenti xanım Ziglinde Hartman rəhbərlik edəcək. Tədbirdə Almaniy, Avstriya, İsveçrə səfirliklərinin nümayəndələri, Azərbaycanda alman dili sahəsində fəaliyyət göstərən təşkilatlar və alman dilinin tədris olunduğu universitetlərin əməkdaşları iştirakı ediblər. Tədbirdə Azərbaycan, Almaniya, Avstriya və İsveçrə dövlətlərinin himnləri səsləndirilib. Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla qonaqları universitetdə görməkdən məmnun olduğunu bildirib. Bu günün universitetdə son dərəcə möhtəşəm gün olduğunu və ADU-nun tarixinə yazılacağını diqqətə çatdırıb. ADU-da bir çox ölkələrin dil və mədəniyyətlərinin təbliğ olunduğunu vurğulayıb. İnstitutun açılmasının ADU üçün elmi, tədris, hətta siyasi əhəmiyyətini vurğulayan rektor bu işdə əməyi keçənlərə təşəkkürünü bildirib. O, institutun açılışında yaxından iştirak edən Almaniyanın elm və mədəniyyət xadimi Z.Hartmanın yalnız Almaniyada deyil, dünyada tanınmış araşdırmaçı olduğunu söyləyib. Rektor bildirib ki, Germanistika İnstitutu ADU ilə yanaşı, ölkənin digər ali təhsil müəssisələri üçün də faydalı olacaq. Rektor ADU-nun bu institut vasitəsilə Almaniya, Avstriya və İsveçrənin elmi dairələri ilə əlaqələrinin genişlənəcəyinə inandığını qeyd edib. Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ildə Fridrix Fon Ditsin xatirəsini əbədiləşdirmək məqsədi ilə sərəncam imzaladığını xatırladan rektor 1815-ci ildə adıçəkilən alman aliminin “Kitabi-Dədə Qorqud” dastanını tədqiq edərək dünyaya tanıtdığını vurğulayıb və digər alman ədəbi cərəyanlarının nümayəndələrindən söz açıb. Germanistika İnstitutunun tələbələrin inkişafında xüsusi rol oynayacağını diqqətə çatdırıb. Rektor bildirib ki, professor Z.Hartman on ildən artıq müddətdə Azərbaycan ali məktəbləri ilə əlaqələr qurub, alman dil, mədəniyyəti, tarixi və ədəbiyyatının ölkəmizdə yayılmasında xüsusi xidmət göstərib. Z.Hartmanın artıq Azərbaycan ədəbiyyatının Almaniyada və almandilli ölkələrdə tanınması istiqamətində fəaliyyət göstərdiyini deyən rektor professora bu fəaliyyətinə görə təşəkkürünü bildirib. Professor Ziglinde Hartman ilk dəfə Azərbaycana gəlişindən və təəssüratlarından söz açıb. O, K.Abdulla ilə birgə fəaliyyətini xatırlayaraq qazanılan təcrübələrdən danışıb. Azərbaycanda Germanistika İnstitutunun açılmasının Almaniya Federativ Respublikası üçün böyük şərəf olduğunu deyən professor bu işdə səy göstərən hər kəsə təşəkkürünü bildirib. Almaniyanın Azərbaycandakı fövqeladə və səlahiyyətli səfiri Mixael Kindsqrab, İsveçrənin Azərbaycandakı föqvəladə və səlahiyyətli səfiri Filip Şdalder, Avstriyanın Azərbaycandakı səfirliyinin konsulu Volfqanq Marxardt Germanistika İnstitutunun açılması münasibətilə ürək sözlərini bildiriblər. ADU ilə genişlənən qarşılıqlı əlaqələrdən söz açaraq bu əlaqələrin ölkələrarası münasibətə də öz töhfəsini verdiyini deyiblər. Daha sonra ADU-nun Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının müdiri, professor Sərxan Abdullayev, həmçinin xəlifə rektor Nicat Aşurov, tələbə Pərvanə Yəhyazadə İnstitutun açılmasını böyük uğur kimi qiymətləndiriblər. Sonda ADU-nun II və III kurs tələbələri alman dilində mahnılar ifa ediblər.

# 2018-ci ildə “Nar” 700-dək yeni baza stansiyasını istismara verməyi planlaşdırır



“Nar” 2018-ci ildə də şəbəkənin təkmilləşdirilməsi işlərini davam etdirməyi, həm paytaxt, həm də bölgələrdəki abunəçiləri yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin etməyi planlaşdırır. Belə ki, il ərzində şəbəkənin inkişafı və təkmilləşdirilməsi işləri çərçivəsində respublikanın bölgələrinə xüsusi diqqət ayrılması nəzərdə tutub. 4G (LTE) texnologiyasının əhatə dairəsinin bölgələrdə genişləndirilməsi, eyni zamanda 3G texnologiyasının daha da təkmilləşdirilməsi tədbirlər planının əsas məqamlarındandır. Müvafiq olaraq, Bakı və Abşeron yarımadasında LTE texnologiyasının inkişaf etdirilməsi istiqamətindəki işlər 2018-ci ildə də davam edəcək və abunəçilər daha keyfiyyətli rabitə xidmətlərindən faydalanacaqlar. Ümumilikdə, ötən ilin sonuna olan mövcud baza stansiyalarının sayı ilə müqayisədə şəbəkədə baza stansiyalarının 25%-dək artımı nəzərdə tutulub.

Xatırladaq ki, aparılmış genişmiqyaslı təkmilləşdirmə işləri nəticəsində mobil operator Bakı və Abşeron yarımadası ilə yanaşı, artıq respublikanın digər bölgələrində də LTE xidmətini abunəçilərinin istifadəsinə təqdim edib. Belə ki, bölgələrdə ilk olaraq Gəncə şəhərində yaşayan abunəçilər mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən LTE xidmətindən yararlanmaq fürsəti əldə ediblər. Gəncə şəhərindəki “Nar” abunəçiləri də mobil operatorun LTE texnologiyası ilə təmin etdiyi 225 Mbit/s çatan sürət sayəsində internet resurslarından daha səmərəli şəkildə istifadə etmək imkanı qazanıblar.

“Nar” şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. “Azerfon” şirkəti 21 mart 2007-ci ildə “Nar Mobile” ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən “HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Ermənipərəst Xədicə İsmayıldan gözlənilən yalnız xəyanətdir

***Fevralın 28-də adını araşdırmaçı-jurnalist qoyan Xədicə İsmayıl BMT İnsan Haqları Şurasında çıxış edib. X.İsmayılın haqqında cinayət işi olduğu üçün ölkədən çıxmasına qadağa qoyulub. Bu baxımdan, onun, şura üzvlərinə müraciəti video vasitəsilə olub. Araşdırmaçı-jurnalist öz müraciətində korrupsiyanın cəmiyyəti zəhərlədiyini, bir çox inkişaf sərmayələrini məhv etdiyini və BMT-nin bu problemlərə çarə tapmaq əvəzinə, çox vaxt problemin bir hissəsi olduğunu deyib.***



Özünü gah "araşdırmaçı-jurnalist", gah da "hüquq müdafiəçisi" kimi siyasi müxalifətin "aparıcı fiquru" qismində ictimaiyyətə zorla sırımağa çalışan X.İsmayıl bu dəfə də özünü araşdırmaçı kimi təqdim etməklə, guya ki, korrupsiya hallarının üstünü açmaqda mükəmməl olduğunu çatdırmaq istəyir. Öz nitqində də deyib ki, mən araşdırmaçı-jurnalistəm və mənim işim korrupsiya hallarının üstünü açmaqdır. Sənin işin təkcə bununla bitmir, ay Xədicə İsmayıl. Sən ermənilərin əməllərinin üstünü açardın, əgər milli mənsubiyyətində bir qaranlıq məqam, bir qarmaqarışıqlıq olmasaydı. İllərlə müxalifətçilikdən kuflyaj kimi istifadə edib, ortada yeyib-qıraqda gəzənlər kimi, nə müxalifətçi kimi müxalifətlə düz dolandı, nə də onlardan aralandı. Xədicə fürsət gözləyən kəmfürsətlər kimi daim pusquda durdu və Azərbaycanın nüfuzuna zərbə vurmaq üçün məqam gözlədi. Halbuki 20% torpaqları işğal altında olan jurnalist, əgər həqiqətən də, azərbaycanlıdırsa, bütün gücünü daha çox işğalçıların əməllərini sübuta yetirən faktların araşdırılmasına, arqumentlərin, məhz BMT İnsan Haqları Şurasına çatdırılmasına səfərbər edərdi. Biz bunun tamamilə əksini gördük və hələ də bu jurnalistin məqsədi milli maraqlar deyil, əksinə, ermənilərin dəyirmanına su tökməkdir. Şübhələrimizdə haqlıyıq, onun milli mənsubiyyətində qaranlıq məqamlar özünü doğrultdur və hətta mövqeyində də ermənipərəstlik açıq-aşkar görünür.

Göründüyü kimi, X.İsmayıl, son məqamda, BMT-nin özünə də ittihamlar səsləndirir və ələlxüsus, korrupsiyada ittiham edir. Ölkələrin liderləri ilə iş birliyində olmaqda, çirkli pullara sahib olmaqda və çirkli pulların tədavülündə BMT-ni və onun yüksək ranqlı rəhbərlərini də günahlandırır. Təbii ki, bu jurnalist onun sözlərinə məhəl qoyulmadığının fərqindədir və əslində, onun marağı tamamilə başqadır. X.İsmayıl öz dərdini unudub BMT-nin dərdini düşünəcək biri deyil və müraciəti, bütövlükdə, pafoslu nitqlə olsa da, başqa qaranlıq məqamlara hesablanıb. Bu məqamların təyinatı fərqli olsa da, yekunda yalnız onun öz maraqlarına xidmət edir.

## Şəxsi maraqlar, siyasi dividend, eyni zamanda, qrant uğrunda mübarizə apardığı göz qabağındadır

X.İsmayıl indi də özünü hüquq müdafiəçisi kimi, müxalifətçi, demokrat kimi, mübariz biri kimi təqdim etməyə çalışır və bu yolla xarici təşkilatlardan qrant almaq niyyəti güdür. Onun şəxsi maraqlar, siyasi dividend, eyni zamanda, qrant uğrunda mübarizə apardığı göz qabağındadır. Məqsədi heç də onun işıqlandırdığı məsələlərə diqqət cəlb etmək deyil. Əslində, vəsait əldə etməkdən başqa, heç bir məsələ onu zərrə qədər maraqlandıra bilməz. Görünür, bu qrant biznesini şəriksiz, qruplaşmasız və təkbaşına idarə etmək fikrindədir deyə belə bir oyuna tək girişib və kiminləsə bölüşmək fikri də yoxdur. Bəlkə də müxalifət düşərgəsində təmsil olunan qurumların uğursuz fəaliyyəti, nəticədə qrant almaq ümidlərinin puç olması bu jurnalistin təkbaşına fəaliyyət göstərmək və qrantlara sahib olmaq istəyini doğurub.

Araşdırmaçı-jurnalistin BMT İnsan Haqları Şurasına videomüraciətində niyyətinin yalnız vəsait və qrant əldə etməkdən ibarət olduğunu söyləmək də düz olmaz. Onun bu vaxta qədərki fəaliyyətini xatırlasaq, görərik ki, ermənipərəstliyi ilə seçilən bu jurnalistin başqa məkrli niyyətləri də təkzib edilə bilməz. Hətta ermənilərin maraqlarını qorumayacağına da kimsə zəmanət verə bilməz. Əksinə, Xədicənin hər zaman ermənilərlə eyni ampluada olduğunu hər kəsə bəllidir və bundan sonra hələ hansı bəd əməllərə qol qoyacağını bilmək olmaz. Necə ki, dəfələrlə Azərbaycanın deyil, Ermənistanın xeyrinə verilən qərarlara üstünlük verən bu adamdan bundan sonra da eyni mövqe gözlənilməlidir. Soyunda erməni olan bir jurnalist yalnız belə bir mövqe nümayiş etdirə bilər ki, X.İsmayıl da daim həmin mövqedən çıxış edir.

## Qodmin bu jurnalistin öz millətinə, dövlətinə qarşı MKİ tərəfindən "verbovka" olunduğunu etiraf edib

X.İsmayıl təkcə ermənipərəsliklə xarakterizə etmək olmaz. Bu qadının fəaliyyət spektrı daha genişdir və onu xarici kəşfiyyat orqanlarının agenti kimi də tanımaq lazım gəlir. "Azadlıq" radiosunun keçmiş prezidenti Ceffri Qodmin "The Boston Globe" qəzetində radionun müxtəlif ölkələrdəki bölmələrində çalışan jurnalistlərlə bağlı sensasiya xarakterli bir məqaləsində vaxtilə radionun Bakı bürosuna rəhbərlik edən X.İsmayılın, əslində, jurnalist yox, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin agenti olduğunu açıqlayırdı. Qodmin bu jurnalistin öz millətinə, dövlətinə qarşı istifadə olunduğunu açıq şəkildə dilə gətirir və MKİ tərəfindən "verbovka" olunduğunu etiraf edir. Xədicə İsmayıl hər platformada guya Azərbaycan hökumətinə müxalifətdə olduğunu iddia etsə də, əslində, xaricdən aldığı təlimatlar əsasında birbaşa dövlətə qarşı fəaliyyət göstərir. Bu istiqamətdə fəaliyyətinə paralel olaraq, ermənilərlə əməkdaşlıq etməsini təsdiq edən arqumentlər saymaqla bitmir.

Məsələn, X.İsmayıl 2014-cü ilin 24 sentyabr tarixində ATƏT-in Varşava Bürosunun təşkil etdiyi konfransda azərbaycanlı QHT təmsilçisinin Dağlıq Qarabağ mövzusunda çıxışı zamanı ermənilərlə birlikdə ayağa qalxaraq, arxasını çevirməsi yaddaşlardan silinməyib. Görəsən, azərbaycanlıların deyil, ermənilərin yanında qərarlaşan bu jurnalist hansı üzlə Azərbaycanın maraqlarından çıxış etdiyini iddia edir? Arxasını azərbaycanlı QHT təmsilçisinə çevirməklə ermənilərin mövqeyindən çıxış etməsi fonunda Azərbaycan təəssübkeşliyindən dəm vurmaq absurddur.

Başqa bir fakt kimi ötən ilin fevral ayında Avropa Parlamentinin çexiyalı deputatı, qatı ermənipərəstliyi ilə tanınan Yaromir Ştetinanın dəstəyi ilə keçirilən və əvvəldən axıradək, Azərbaycan dövlətinin hədəf alındığı tədbirdə də X.İsmayılın ermənilərin tezislərinə söykənən çıxışı göstərilə bilər. Qondarma "erməni soyqırımı"nın fəal təbliğatçılarından olan vəkil Amal Kluni ilə Xədicənin əməkdaşlığı artıq ayrıca bir müzakirənin mövzusudur. Bu arqumentlərin sayını artırmaq mümkündür, amma fərq etməz, elə bunlar da kifayət edir ki, onun ermənipərəstliyi sübut olunsun. Bütün bu faktların fonunda araşdırmaçı-jurnalistin BMT İnsan Haqları Şurasına müraciətini milli maraqlar, dövlətçilik maraqları prizmasında təhlil etmək mümkünsüzdür. Əksinə, bəlli olur ki, bu adamın yeganə məqsədi dövlət əleyhinə çıxışları ilə ölkəmizin artan nüfuzuna xələl gətirməkdir. Erməni xislətli, ermənipərəst Xədicə İsmayıldan gözlənilən yalnız xəyanət ola bilər. Belələrinə isə, xəyanətkar adından başqa heç bir ad yaraşmır.

*İnam HACIYEV*



**Təhmasib Novruzov**

## "İftira dünyası"na atüstü səfər

***Məni heç kəs qınamasın. Bu adamların yaşadıqları "dünya"ya bundan daha mədəni bir ad tapa bilmədim: İFTİRA DÜNYASI! Həm də iftiranın da bir həddi olar, hüdudu olar. İftira deyəndə də, gərək elə deyəsən ki, az da olsa inandırıcı olsun. Yox e...Bu "dünya"nın adamları ağızlarına nə gəlir, beyinləri necə istəyir, eləcə də, ifraz edirlər üfunətli fikirlərini.***

Bəli, məhz ifraz edirlər. Yəni sözü deyən kəs, bir az da olsa dediyini düşünüb deyər. Bunlar düşünmək qabiliyyətinə malik deyillər və deməli, söz demirlər, ifraz eləyirlər. Kim məni qınayacaqsa, zəhmət çəkib deyəcəyim faktları oxusun, sonra görsün, məni qınamağa dəyər, ya yox! Gündə bir video-çarx (?) düzəldib, səviyyələrinə uyğun söz ifrazatları ilə doldurub öfürürlər youtube deyilən sosial şəbəkəyə. Əvvəllər heç maraqlanmazdım belə şeylərlə. Ən azı mənəviyyatıma sığışdırmırdım ki, birdən kimsə bilər ki, belə videolara baxır, qulaq asıram, məni qınayar. Amma təsadüf nəticəsində birinə qulaq asandan sonra, qəşş eləyib gülmək istəyəndə, açıram həmin videolardan birini, baxıb, gülüb, dincəlib, sonra da söndürürəm. Əvvəla, dövlətin, dövlətçiliyin nə olduğunu qanmayan bu holland sindromlu binəvalar, bu ölkənin başbilənlərinə dövləti necə idarə etməli dərsi verir və milli dəyərləri pozmaqda hakimiyyət yetkililərini günahlandırırlar. Özünü və kişiliyini qoruya bilməyən birinin belə-belə sözlərinə qəşş eləməyəsən, neynəyəsən? Sonra başlayırlar ki, Azərbaycan Rusiyanın hesabına tarix boyu əziyyət çəkib, niyə indiki hakimiyyət ruslarla dostluq edir? Bilmirəm, bəlkə bunlar və ya bunlara züy tutanlar, Allah eləməmiş, hakimiyyətdə olub eləsələr, ruslarla, farslarla, yunanlarla, monqollarla və ərəblərlə müharibəni aparacaqlar? Axı onlar da zamanında bu millətin qanını az axıtmayıblar! Yəni ki, dünyaya savaş açaq, çünki keçmişdə bizə savaş açıblar (yeni olaq Qafqazın Koreyası!..). Bax, belə fikirləri də eşidib, qəşş eləməyəsən, neynəyəsən? Amma bu video-çarxda bəzən adamı gülməyə yox, cavab verməyə vadar edən məqamlar da varıdı ki, ondan da yan keçmək olmur. Bu da ibarətdi ondan ki, nə qədər olsa da, bu binəva zatlar da bu millətin övladlarıdır (neyniyək, bəzən millətin üzqaraları da olur). Amma öz millətinin övladlarını erməni və ya erməniyə kömək edən kimsələr kimi təqdim etməyə can atırlar. Şər-böhtan o yerə çatır ki, Xoçalının 1988-ci ildən 1992-ci ilin fevralına kimi müdafiəsini yüksək səviyyədə təşkil edən, qətliam gecəsində anası da daxil olmaqla, on bi nəfər yaxınlarını itirən bir şəxsiyyəti ermənilərlə qohumluqda, hətta Xocalı qətliamında ermənilərə kömək etməkdə(???..) ittiham edirlər. O kəs ki, faciədən sonrakı həftə ərzində, şəxsən bu sətirlərin müəllifi də daxil olmaqla, minlərlə insanın gözləri qarşısında maşınlarla daşınan şəhidlərin dəfnində iştirak edirdi. Amma bu şərçil zatlar zorla istəyirlər cəmiyyəti inandırsınlar ki, həmin şəxs faciədən bir gün sonra, yəni fevralın 27-də Ermənistandan keçməklə Naxçıvana (???..) gedib...Həyatımda çox yalanlar eşitmişdim, amma beləsini heç ağlıma da gətirməzdim. Sonra ifraz etdikləri sözlərdən məqsəd aydın olur. Yəni bu zatlar (üzr istəyirəm, zatıqırıqlar demək istəyirdim) faciənin törədilməsinə Naxçıvandan dəstək olması, nəticədə, hakimiyyətə gəlmək istəyinin (?) reallaşdırılması kimi sərsəm fikirlərini tökürlər ifrazat qabına. Halbuki Qarabağda vəziyyətin azərbaycanlıların ziyanına dəyişməsinə çalışanlar da, bu faciələrdən yararlanıb hakimiyyəti zəbt edənlər də millətə çoxdan bəllidir. Bax, bu yerdə ataların məşhur deyimi yada düşür: Adımı qoyaram sənə, səni qoyaram yana-yana! Amma ifrazat iyi heç kəsi yandırmır, sadəcə, bir az qoxusu adamı narahat edir. Onun da əlacı var. Burnunu tut, keçib gedəcək, vəssalam!..

## Gömrükçülər narkotik vasitə müsadirə edib

Gömrükçülər narkotik vasitə müsadirə edib. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Balakən Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında, "Mazımçay" gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi yük avtomobilinə baxış keçirilib.

Yoxlama zamanı, avtomobilin sürücüsünün şalvarının cibində bir ədəd bükümdə, qablaşdırılması ilə birgə çəkisi 0,3 qram olan narkotik vasitə - marixuana aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Leyla Yunus xisləti - erməniçilik!

## *Yaxud anası gəzən ağacı, balası budaq-budaq gəzər...*

***Artıq bəlli olduğu kimi, bir neçə gün öncə, ATƏT Parlament Assambleyasının 17-ci qış sessiyasında iştirak edən azərbaycanlı deputatlar daim erməni lobbisinə xidmət göstərən və bu gün də öz çirkin və xəyanətkar əməllərini davam etdirən "Sülh və Demokratiya İnstitutu"nun direktoru Leyla Yunusdan Xocalı qurbanları barədə nə üçün danışmadığını soruşublar. Lakin o, deputatların suallarına doğru-dürüst cavab verməsi yerinə, Xocalı şəhidlərinə açıq şəkildə sayğısızlıq edərək, siyasi həyasızlıq nümayiş etdirib, üstəlik, gülməyə başlayıb. Onunla eyni masada oturan Emin Hüseynov da həmin sayğısızlığı nümaiyş etdirib.***

### Yalnız söyüş söyəndə, Azərbaycan dilində danışdığını həyasızcasına bəyan edən də bu ermənisifətdir!

Əgər nəzərə alsaq ki, vaxtilə Bakıda "Eurovision" Mahnı Müsabiqəsi ərəfələrində erməni təşkilatlarının maliyyə dəstəyi ilə fəaliyyət göstərən bəzi xarici media qurumları üçün "Demokratiya üçün oxu" şüarı altında konfrans düzənləyib, həmin konfransda



Azərbaycana qarşı ləkə atmağa çalışan L.Yunus yalnız söyüş söyəndə, Azərbaycan dilində danışdığını etiraf edibsə, bu zaman onun Xocalı soyqırımına və orada həlak olan insanların ruhlarına qarşı göstərdiyi hörmətsizliyindən təəccüblənməyə dəyməz. Onu da, xatırladaq ki, məhz həmin konfransda da E.Hüseynov, "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev və digər sözdə müxalif mövqeli şəxslər də L.Yunusun yanında əyləşərək, həmin ifadələrini alqışlamışdı! Bu zaman belə bir sual meydana gəlir - "SDİ" rəhbəri Azərbaycan xalqına qarşı Azərbaycanın faciəsinə qarşı saymazyana mövqeyindən dolayı hansısa şəkildə layiqli cəza ala bilməsi mümkündürmü?

### Beynəlxalq hüquq və münasibətlər üzrə ekspert: "Onun fəaliyyəti 2013-2014-cu illərdə Azərbaycan dövlətinin əleyhinə beynəlxalq təşkilatların aktivləşdiyi dövrə təsadüf edir"

Xocalı soyqırımı beynəlxalq sferada layiq olduğu hüquqi qiyməti yetərincə almayıb. Xocalı faciəsini 12 ölkə və ABŞ-ın 21 ştatı tanıyır, ancaq bu da yetərli deyil. Məhz bu istiqamətdə Azərbaycan dövləti və xaricdə fəaliyyət göstərən diaspora təşkilatları "Xocalıya ədalət" kampaniyasını qətiyyətlə davam etdirməkdədir. Məhz bu xüsusda mediaya açıqlama verən beynəlxalq hüquq və münasibətlər üzrə ekspert Yeganə Hacıyeva bildirib ki, L.Yunus hazırda bir neçə beynəlxalq təşkilatlarla partnyorluq edir, la-



kin soyqırımı faktına beynəlxalq miqyasda hüquqi qiymət verilsəydi, onda L.Yunusun cəzalandırılması üçün addımlar atıla bilərdi. "O, hazırda Azərbaycanda qaçıb və vətəndaşlıqdan imtina edib. Hazırda ikili vətəndaşlıq üçün çalışır. Hollandiya və Fransa"-deyə qeyd edən Y.Hacıyeva, həmçinin, bildirib ki, vaxtilə Azərbaycan dövlətində fəaliyyət göstərən QHT rəhbərini Fransa dövlətinin bu cür yüksək ordenlə təltif etməsi səbəbi barəsində fikirləşmək lazımdır. Beynəlxalq hüquq və münasibətlər üzrə ekspert, həmçinin, xatırladıb ki, bir QHT rəhbərinə bu orden yalnız xarici kəşfiyyat xidmətləri ilə əməkdaşlığa görə verilə bilər: "Çünki onun başqa beynəlxalq fəaliyyəti yoxdur. Onun fəaliyyəti ancaq Azərbaycan hökumətini ləkələməkdən ibarətdir. Onun fəaliyyəti 2013-2014-cu illərdə Azərbaycan dövlətinin əleyhinə beynəlxalq təşkilatların aktivləşdiyi dövrə təsadüf edir. Bundan başqa, onun heç bir fəaliyyəti yoxdur".

### Yeganə Hacıyeva: "Leyla Yunus Cənubi Qafqazda xalq diplomatiyası adı altında ermənilərlə geniş iş birliyi göstərdiyi üçün deşifrə olunub"

Y.Hacıyeva vurğulayıb ki, çox nüfuzlu mənbələr onun ermənilərlə işbirliyini təsdiqləyir: "Leyla Yunus Cənubi Qafqazda xalq diplomatiyası adı altında ermənilərlə geniş iş birliyi göstərdiyi üçün deşifrə olunub. Onun cinayət işinin əsas hissəsi də informasiyaların ötürülməsi ilə bağlı idi. Nəzərə alsaq ki, o, Qarabağ müharibəsi dövründə Müdafiə Nazirliyində müəyyən post tutub, bu zaman, görünür, həmin istiqamətdə fəaliyyətləri olub. O, informasiya bolluğundan Azərbaycana qarşı istifadə edib. Çünki başqa dövlətə işləmək, artıq öz ölkənə xəyanət etmək deməkdir".

Beləliklə, fakt budur ki, L.Yunus Azərbaycandan kənarda daha rahat şəkildə ölkəmizin maraqları əleyhinə fəaliyyət göstərir və onun həmin fəaliyyəti yalnız bununla bitmir. L.Yunus əlavə olaraq, şəhidlərimizin ruhlarını təhqir etməklə öz erməniçiliyi ilə murdar xislətini nümayiş etdirir. Lakin bütün bunların da bitəcəyi bir zamanın elə də uzaqda olmadığını deyə bilərik. Qanun və ədalət belə xəyanətkarların başları üzərində Domokl qılıncı kimi asılacaq. Bax, buna onların heç biri şübhə etməməlidirlər!

***R. RƏSULOV***

***P.S. Leyla Yunus və Arif Yunus bəlli cinayət əməllərinə görə həbs olunarkən, onların Hollandiyada yaşayan ermənipərəst qızları Dinara Yunus "Odnoklassniki" sosial şəbəkəsində Dağlıq Qarabağ cəbhəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid düşən əsgərlərimizin ruhlarını təhqir edərək, "Qoy ölsünlər, qırılsınlar" şərhini yazmışdı. Görünən budur ki, anası gəzən ağacı, balası budaq-budaq gəzir...***

# Sabir Rüstəmxanlı yenə xofländı

## *Yaxud VHP sədri nəyə görə fikirlərinin protokollaşdırılmasına qarşı çıxıb?*



Bu günlərdə Hollandiyanın Amsterdam şəhərində Avropa Azərbaycanlıları Konqresinin qurultayı keçirilib. Qurultayda bir sıra məsələlərlə bağlı müzakirələr aparılıb və qərarlar qəbul olunub. Həmin tədbirdə diqqətçəkən məqamlardan biri də VHP sədri, keçmiş millət vəkili Sabir Rüstəmxanlının mühüm qərarlara qarşı çıxması və əsasən, müxalif mövqedə dayanaraq, müzakirələri pozması olub ki, bu da qurultay iştirakçılarının haqlı narazılıqlarına səbəb olub.

### Ölkəmizdəki son mühüm ictimai-siyasi prosesləri "əhəmiyyətsiz" adlandıran sabiq deputatın növbəti "ayağısürüşkənliyi"

Daha dəqiq desək, siyasi-ictimai rəydə "ayağısürüşkənliyi" ilə tanınan sabiq deputat mühüm təşəbbüslərlə çıxış edən qurultay səlahiyyətlilərinin əleyhinə çıxaraq, növbəti dəfə öz daxilindəki qaranlıq mövqeyini sərgiləmiş olub. Digər vacib nüans ondan ibarət olub ki, qurultayın təşkilat komitəsi S.Rüstəmxanlının pozuculuğa yönəlmiş fikirlərini protokola salmaqla bağlı təklif irəli sürərkən, VHP sədri buna etiraz edərək, qeyri-ciddi fikirlərlə diqqəti üzərindən yayındırmağa cəhd göstərib. Ümumiyyətlə, Azərbaycanda gedən son mühüm ictimai-siyasi prosesləri "əhəmiyyətsiz" adlandıran sabiq deputatın, məhz Hollandiyada bu cür davranışları onun barəsində bir sıra mülahizələrin önə çıxmasına şərait yaradıb.

### Orduxan Teymurxan adlı simasızın yaşadığı bir ölkədə Sabir Rüstəmxanlının xalqın marağı əleyhinə yönəlmiş fikirləri suallar doğurur

Beləliklə, S.Rüstəmxanlı növbəti dəfə tam siyasi prinsipsizlik, qeyri-ardıcıllıq və riyakarlıq nümayiş etdirib. Misal üçün, bəllidir ki, bu gün Hollandiyada erməni lobbisinə xidmət edən bir sıra milli satqınlar yığnağı fəaliyyət göstərir və onların idarəçiliyində dayanan baş nökərlərdən biri də Orduxan Teymurxandır. Məhz bu simasızın "siyasi mühacir" adı altında yaşadığı ölkədə S.Rüstəmxanlının bəlli davranışlar sərgiləməsi özü-özlüyündə bir sıra suallar doğurmaqla yanaşı, həm də bu suallara cavab verir. Görünür, Rüstəmxanlının növbəti dəfə deputat seçilməməsi onun beynində uzun illərdən formalaşmış qeyri-səmimilik hüceyrələrini yenidən oyadıb. Xüsusilə, seçki prosesi öncəsi sabiq deputatın məlum oyunbazlıqlarının protokollaşdırılmaması istiqamətində ajiotaj yaratmaq, bu istiqamətdəki xoflanmaq cəhdləri qeyd edilən mülahizələrin reallığa yaxın olduğunu sübuta yetirmiş olur. Zaman isə, heç nəyi gizlətmir və vaxtı-vaxtında üzə çıxarır. Bu dəfə də belə oldu.

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifət pulsuz şou yaratmağı planlaşdırır

## *Rejissorların savadsız və yarıtmaz olmaları şouya qoyulan yatırımın batacağından xəbər verir*

Bu gün təkzib olunması qeyri-mümkün olan fakt ondan ibarətdir ki, dağıdıcı xislətli müxalif partiya sədrlərinin əksəriyyəti bu və ya digər formada xarici anti-Azərbaycan qüvvələrə bağlıdırlar. Onlardan maliyyə vəsaiti alır və qarşılığında pozucu əməllərə cəhd göstərirlər. Müsavat fəalı Əfqan Muxtarlının və AXCP sədr müavini Gözəl Bayramovanın Gürcüstandan Azərbaycana külli miqdarla maliyyə vəsaitini qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd edən zaman sərhəd-keçid məntəqəsində saxlanılmaları bunun şübhəli məqamlara aydınlıq gətirmiş oldu. O, başqa mövzudur ki, müxalifət liderləri niyə doğulub, boya-başa çatdıqları dövlətlərinə düşmən kəsilib? Nədən müxalifət təmsilçiləri xalqdan ayrı düşərək, milli maraqlarımıza zərbə vurmaq yolu tutublar? Niyə müxalifət partiyaları seçkilərə qatılmaqdan imtina edirlər? Axı, seçki istənilən siyasi partiyanın gücünü və sosial baza imkanlarını ortaya qoya biləcək ümumxalq tədbirdir. Seçkiyə qatılmamaq zəiflik əlaməti və məğlubiyyətini etiraf etmək deməkdir.

### Müxalifətin pozucu fəaliyyəti cavabsız qala bilməz

Söz yox ki, hər hansı xarici maraqlı dairələrdən, fondlardan və təşkilatlardan maliyyə vəsaiti almaq yolverilməzdir. Yəni siyasi partiyaların xarici hüquqi və fiziki şəxsdən maliyyə yardımnı almaları cinayət məsuliyyəti yaradır. Bu hal "Siyasi partiyalar haqqında qanun"un tələblərinin pozulması deməkdir. Məhz bu cür əməllərə görə, hələ ki, həbs olunan partiya yetkilisi olamasa da, proqnozlara əsaslanaraq, demək olar ki, yaxın vaxtlarda saxlanılanların olacağı şübhəsizdir. Çünki artıq bu istiqamətdə ciddi və əsaslı faktlar toplanılıb. Baş Prokurorluğun bu günlər bir neçə müxalif yetkilisini saxta partiya vəsiqələri hazırlayaraq, satmaları faktları üzrə dindirmələri və izahatlarını almaları artıq bu istiqamətdə ictimai çağırışların nəticə verdiyini deməyə əsas verir. Ancaq sızan məlumatlara görə, izahat alınması prosesində xaricdən maliyyə yardımlarının alınması və bu cür halların Azərbaycan qanunvericiliyinə zidd olması ətrafında da söhbət və ilkin xəbərdaqrlıqlar olub. Deməli, xəbərdarlıqlar nəticə etibarı ilə, həbs olunmalara gətirib çıxaracaq. Bununla da bəd əməl sahibləri layiq olduqları cəzaları almış olacaq. Hələlik isə, müxalifət yetkililəri müxtəlif vasitələrlə aranı qarşıdırmağa, mitinqlər yolu ilə təxribatlar törətməklə, fəaliyyətlərini davam etdirilər. Növbəti mitinqlər seriyası da qarşıdurmalar yaratmağa hesablandığını demək olar. Təbii ki, xarici ağalarının sifarişi əsasında hay-küy qaldırmağı planlaşdırırlar. Ancaq arzu və istəkləri baş tutmayacaq. Çünki ssenari köhnə olduğu kimi, rejissorlar da yarıtmaz və düşüncəsiz məxluqlardır.

***İ.ƏLİYEV***

# Azərbaycan vətəndaşlarının istirahət hüququ

***Əmək fəaliyyəti ilə məşğul olan hər kəsin istirahət hüququ konstitusiya ilə təsbit edilib. Lakin bütün iş yerlərində işçilərin istirahət hüquqları tam təmin olunmur. İstirahət vaxtında işçi əmək qanunvericiliyinə uyğun olaraq, əmək öhdəliklərinin yerinə yetirilməsindən azad edilməlidir. İşçi həmin vaxtı özünün şəxsi fikri ilə əmək qabiliyyətinin bərpa olunmasına və özünün maraqlarının təmin olunmasına sərf etməlidir.***

İş vaxtı - müddəti qanunla nəzərdə tutulmuş həftəlik və gündəlik iş saatları ərzində işçilərin əmək funksiyasını yerinə yetirməsi üçün müəyyən edilmiş zamandır. Qanunvericilik iş vaxtının 3 növünü müəyyən edir. Birinci növə müəssisədə, idarədə və təşkilatda həftəlik 40 saatlıq iş vaxtını nəzərdə tutan normal iş vaxtı, ikinci növə qısaldılmış iş vaxtı, üçüncü növə natamam iş vaxtı aid edilir. AR ƏM-in 90-cı maddəsinə müvafiq olaraq, altıgünlük iş həftəsində həftəlik norma 40 saat olduqda, gündəlik iş vaxtının müddəti 7 saatdan, həftəlik norma 36 saat olduqda, gündəlik iş vaxtının müddəti 6 saatdan və həftəlik norma 24 saat olduqda, gündəlik iş vaxtının müddəti 4 saatdan çox ola bilməz. Bir qayda olaraq, iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir. Altıgünlük iş həftəsi istehsalın, işin, xidmətin və əmək şəraitinin xarakterindən asılı olaraq, işəgötürən və ya müvafiq icra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) tərəfindən müəyyən edilə bilər. Qısaldılmış iş vaxtı - işçilərin ayrı-ayrı kateqoriyalarına onların yaşı, səhhəti, əmək şəraiti və əmək funksiyasının xüsusiyyətləri nəzərə alınmaqla, əmək müqaviləsinin şərtləri ilə müəyyən edilə bilər. Qısaldılmış iş vaxtının müddəti həftə ərzində 16 yaşadək işçilər üçün 24 saatdan, 16 yaşdan 18 yaşadək işçilər və 1-ci, 2-ci qrup əlil olan işçilər üçün, həmçinin, hamilə və yaşyarımadək uşağı olan qadınlar üçün 36 saatdan artıq ola bilməz. Əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə, insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olduqda, bu vəzifədə çalışan işçilərə 36 saatdan çox olmayan qısaldılmış iş vaxtı müəyyən edilir. Xüsusi xarakterli işlərdə çalışan işçilərə də (həkimlərə, müəllimlərə, elektrotexniki qurğularda, cihazlarda işləyənlərə və s.) həftə ərzində 36 saatdan çox olmayan iş vaxtı şamil edilir. Natamam iş vaxtı - əmək müqaviləsi bağlanarkən, habelə, əmək münasibətləri prosesində işçi ilə işəgötürən arasında qarşılıqlı razılıq əsasında müəyyən edilə bilər. İşçinin səhhəti və fizioloji vəziyyəti (hamiləlik, əlillik) habelə, xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə, habelə, 14 yaşına çatmamış, yaxud 16 yaşınadək əlil uşağı olan qadınlara ərizələrilə işəgötürən, natamam iş vaxtı müəyyən etməlidir. Əmək funksiyasını natamam iş vaxtında yerinə yetirən işçilərin qanunvericiliklə və ya əmək müqaviləsi ilə müəyyən edilmiş əmək hüquqlarının hər hansı şəkildə məhdudlaşdırılması yolverilməzdir. İş vaxtından artıq iş - işəgötürənin əmri və işçinin razılığı ilə əmək funksiyasının müəyyən olunmuş iş günü vaxtından artıq müddət ərzində yerinə yetirilməsi sayılır. Bir qayda olaraq, iş vaxtından artıq iş yolverilməzdir. Təbii fəlakətin, istehsalat qəzasının və digər fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması məqsədilə qanunvericiliyin tələblərinə əməl olunmaqla işçinin iş vaxtından artıq işlərə cəlb edilməsinə yol verilir. Əmək şəraiti ağır və zərərli olan sahələrdə bütün iş günü (növbəsi) ərzində iş vaxtından artıq işlərin müddəti 2 saatdan çox ola bilməz. Hər bir işçi dalbadal gələn 2 iş günü ərzində 4 saatdan, əmək şəraiti ağır və zərərli olan iş yerlərində isə 2 saatdan çox iş vaxtından artıq işlərə cəlb edilə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsinə əsasən, hər bir vətəndaş istirahət hüququna malikdir. İstirahət vaxtı dedikdə, təqvim vaxtının o hissəsi başa düşülür ki, həmin müddət ərzində işçi əmək qanunvericiliyinə uyğun olaraq, əmək öhdəliklərinin yerinə yetirilməsindən azad edilməlidir. İşçi həmin vaxtı özünün şəxsi fikri ilə əmək qabiliyyətinin bərpa olunmasına və özünün maraqlarının təmin olunmasına sərf etməlidir.

İstirahət vaxtı 4 növə bölünür. 1. İstirahət və nahar üçün fasilə. İş günü ərzində işçilərə 2 saatdan artıq olmayan istirahət və nahar etmək üçün fasilə verilməlidir. Fasilə, adətən, işə başlayandan 4 saat sonra verilir və həmin müddət iş vaxtına daxil edilmir. Günlərarası fasilə iş gününün bitməsi və növbəti iş gününün başlaması ilə müəyyən olunur. İşçinin bir iş günü ilə növbəti iş günü arasındakı gündəlik istirahət vaxtı azı 12 saat olmalıdır. 2. Bazar günləri. Hər bir işçiyə həftələrarası fasiləsiz istirahət günlərindən istifadə etməyə şərait yaradılmalıdır. Həftələrarası istirahət günlərinin sayı beşgünlük iş həftəsində 2 gün, altıgünlük iş həftəsində isə bir gün olmalıdır. Həftəlik fasiləsiz istirahət müddəti 42 saatdan az olmamalıdır. 3. Bayram günləri. Müəssisələrdə, idarələrdə və təşkilatlarda bu bayram günləri iş öhdəlikləri yerinə yetirilmir (Oktyabrın 18-də - Dövlət Müstəqilliyi Günü, Noyabrın 12-də - Konstitusiya Günü və Noyabrın 17-də - Milli Dirçəliş günləri istisna olmaqla, belə ki, həmin günlər bayram günləri olsa da, istirahət günləri deyildir). Ramazan bayramı - iki gün bayram edilir. Bu günlərdə işçilərin işə cəlb olunmasına yalnız qanunvericilikdə nəzərdə tutulmuş müstəsna hallarda yol verilə bilər. Nəhayət, istirahət vaxtının daha bir növü məzuniyyətdir. Bütün işçilərə onların iş yeri və orta aylıq əmək haqları saxlanılmaqla illik məzuniyyətlər verilir. İşçilərin məzuniyyət hüququ aşağıdakı məzuniyyət növləri ilə təmin edilir: a) əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti; b) uşağına qulluq etmək üçün qadınların sosial məzuniyyəti; c) təhsilini davam etdirmək və elmi yaradıcılıqla məşğul olmaq üçün verilən təhsil və yaradıcılıq məzuniyyəti; ç) ödənişsiz məzuniyyət. Əmək məzuniyyəti - işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi, müddəti ƏM-də nəzərdə tutulandan az olmayan istirahət vaxtıdır. İşçilərə ödənişli əsas məzuniyyət 21 təqvim günündən az olmayaraq verilməlidir. Kənd təsərrüfatı məhsullarının istehsalında çalışan işçilərə, dövlət qulluqçularına, tədris müəssisəsində pedaqoji iş aparmayan rəhbər işçilərə, tədris müəssisələrinin metodistlərinə, emalatxana rəhbərlərinə, laborantlara, kitabxanaçılara, dayələrə, bədii rəhbərlərə, elmi dərəcəsi olmayan elmi işçilərə, həkimlərə, orta tibb işçilərinə, əczaçılara ödənişli əsas məzuniyyət 30 təqdim günü müddətində verilməlidir. Pedaqoji və elmi fəaliyyətlə məşğul olan işçilərin əmək məzuniyyətlərinin müddəti 56 təqvim günü müddətində verilir. Qanunvericilikdə digər sahə işçilərinin məzuniyyət müddətləri sadalanıb. İşçilərin AR ƏM ilə müəyyən edilmiş məzuniyyət hüququ və ondan istifadə qaydaları məhdudlaşdırıla bilməz.

Qanunvericilik əmək şəraiti və əmək funksiyalarına görə ayrı-ayrı kateqoriyadan olan işçilərə əmək məzuniyyətinin fərqli müddətlərini müəyyən edib. Sosial məzuniyyət isə hamiləliyə və doğuşa görə, uşaq 3 yaşına çatanadək ona qulluq edilməsinə görə verilir. Hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir. Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə normal doğuşda 140, doğuş çətin olduqda 156, iki və daha çox uşaq doğulduqda 180 təqvim günü təqvim günü məzuniyyət verilməlidir.

Aspiranturada və doktoranturada müvafiq elmi dərəcə almaq üçün təhsilini davam etdirən işçilərə dissertasiya işlərini tamamlamaq, həmçinin, müəlliflərə dərsliklər və ya dərs vəsaiti yazmaq üçün ödənişli yaradıcılıq məzuniyyətləri verilə bilər.

"Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü iki təqvim ayınadək, elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü isə üç təqvim ayınadək ödənişli yaradıcılıq məzuniyyəti verilir. Yaradıcılıq məzuniyyəti müddətində ödənilən əməkhaqqı işçinin vəzifəsi (peşəsi) üçün müəyyən olunmuş aylıq əmək haqqından hesablanır".

Təhsil alan işçilərə, həmçinin, müvafiq tədris mövsümü sessiyalarında tədris-təlimdə iştirak etmək, laboratoriya işlərini yerinə yetirmək, yoxlamaları və imtahanları vermək, dövlət imtahanlarını vermək və diplom layihəsini (işini) hazırlamaq və müdafiə etmək üçün məzuniyyətlər verilə bilər. Bu məzuniyyətlərin müddətləri qanunvericiliklə müəyyən edilib.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qohumluq borcunun yerinə yetirilməsi ilə bağlı ailə, məişət və başqa sosial məsələləri təxirə salmadan həll etmək, təhsil almaq, yaradıcı elmi işlə məşğul olmaq üçün, habelə, yaşına, fizioloji keyfiyyətlərinə görə işdən ayrılmaq zərurəti olduqda işçinin ödənişsiz məzuniyyətlərdən istifadə etmək hüququ vardır.

"Ödənişsiz məzuniyyətlər qanunvericilikdə nəzərdə tutulmuş hallarda işçilərin xahişi və ya tərəflərin qarşılıqlı razılığı ilə altı aydan çox olmayaraq verilir".

Qanunvericilik aşağıdakı hallarda və müddətdə ödənişsiz məzuniyyətləri müəyyən edib:

"Həkim Məsləhət Komissiyasının rəyi əsasında xroniki xəstəliyə tutulmuş uşağı olan valideynlərdən birinə - uşaq dörd yaşına çatanadək, arvadları doğuşla əlaqədar məzuniyyətdə olan kişilərə, 16 yaşınadək uşağı olan qadınlara və ya tək valideynlərə, qəyyumlara, himayədarlara, müharibədə döyüşən ordunun tərkibində iştirak etmiş şəxslərə, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin müdafiəsi zamanı xəsarət almış işçilərə 14 təqvim gününədək; əlillərə, sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə, doktoranturada, aspiranturada təhsil alan işçilərə - 1 təqvim ayınadək, ailə, məişət və başqa sosial məsələləri həll etmək üçün işçilərə 7 təqvim gününədək və s. verilməlidir".

Aktiv istirahət qabiliyyətini hər kəs özündə tərbiyə etməlidir. Bu, adamın vərdişinə çevrilməlidir. İstirahət itirilmiş enerjini bərpa etmək, sağlamlığın qorunması, psixi rahatlığın təmin olunması və iş qabiliyyətinin artırılması üçün lazımdır. İstirahət, ilk növbədə, insanı həm fiziki, həm də psixi cəhətdən enerji ilə təmin edir. Uzun müddət istirahət etməmək insanın psixoloji durumu ilə yanaşı, sağlamlığına, iş qabiliyyətinə də mənfi təsir göstərir. İstirahət etmədikdə adam yorğun, əzgin, enerjisiz, əsəbi və daim yuxulu olur. Bütün bu simptomlar xroniki yorğunluğun yaranmasına səbəb olur və başqa qarşısı alınmayan xəstəliklər kimi getdikcə daha da ağırlaşır. Nəticədə, səbəbsiz qorxular, narahatlıq hissi, əzələdə ağrılar özünü göstərməyə başlayır. Uzun müddət istirahət etmədikdə, yaddaş pozğunluğu da yaranır. Bu zaman nəyisə yadda saxlamaq və fikrini cəmləmək çətinləşir. Yorğunluq immun sisteminə də təsir göstərir. İmmun sistemi zəifləyir, insan xəstəliklərin, virusların və bakteriyaların qarşısında aciz qalır. Əslində, payız və qış aylarında psixoloji olaraq insanların istirahətə daha çox ehtiyacları olur. Belə ki, havanın pis keçməsi, qaranlıq, monotonluq insanlarda depressiyaya, ruh düşkünlüyünə meyil yaradır. Bu zaman çox yorulduqda, streslə üzləşdikdə belə, nadir hallarda kimsə istirahət etməyi planlaşdırır.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə — 2 mart


## Süni vitaminlərin ziyanları...



Harvard Universiteti (ABŞ) alimləri süni vitaminlərlə bağlı olan geniş araşdırma apardılar.

Alimlər belə qərara gəliblər ki, süni vitamin-mineral kompleksləri və qida əlavələri nəinki faydasızdır, bəzi hallarda insan sağlamlığına hətta ciddi ziyan vura bilər. Xüsusilə bu vitaminlər müstəqil şəkildə, həkimlə məsləhətləşmədən və müayinə keçmədən qəbul olunursa.

Saglamolun.az xarici KİV-lərə istinadla xəbər verir ki, Amerika alimləri aşkar ediblər ki, süni vitaminləri qəbul edən 40% insan belə terapiyadan heç bir fayda almır.

Yaşlı insanlar və hamilə qadınlara vitaminlər ciddi ziyan vura bilər. Hamiləlik zamanı bu və ya digər vitaminin artıqlığı dölün inkişafına mənfi təsir edə bilər.

Yaşlı insanlarda bəzi vitaminlərin artıqlığı (xüsusilə A vitaminin) şişlərin sürətlə inkişafına gətirib çıxarda bilər. E vitamininin artıqlığı yaşlılarda ürək-damar sisteminə ciddi ziyan vurur.

Bundan əlavə kalsiumun həddindən artıq miqdarda qəbulu yaşlı insanlarda sümüklərin daha da zəifləməsinə gətirib çıxardır, damarların və böyrəklərin sağlamlığına mənfi təsir edir.

Alimlərin fikrinə görə, üzərində “super”, “ekstra”, “forte” kimi yazılar olan vitamin-mineral komplekslər xüsusilə təhlükəlidir ki, onların tərkibində olan vitamin və mineralların miqdarı adi komplekslərlə müqayisədə daha yüksək olur.

Bütün bunları nəzərə alaraq alimlər orqanizmə lazim olan vitamin və mineralları süni qida əlavələrindən deyil, təbii qidadan almağı tövsiyə edirlər. Bu zaman orqanizmdə bu və ya digər vitamin və ya mineralın artıqlığı yarana bilməz. Həmçinin orqanizm qidadan olan vitamin və mineralları daha yaxşı qəbul edir.

Ümumiyyətlə normal qidalanan insana süni vitamin və mineralların qəbuluna ehtiyac yoxdur. Vitamin komplekslər yalnız istisna hallarda və yalnız həkim tərəfindən təyin edilə bilər.

## Xərçəng olmaq istəmirsinizsə, bu turşudan yeməlisiniz



Dünyanın ən faydalı qidalarından biri də kələm turşusudur. Kələm turşusu xərçəngdən tutmuş bir çox ölümcül xəstəliyi müalicə edir. Kələm maqnezium və kaliumla zəngindir. Bu minerallar ürək-damar xəstəliklərinin qarşısını alır.

Kələm turşusunun tərkibində bağırsağın dostu olan bol miqdarda laktik turşu və probiotiklər var. Kələm turşusu çox yeməklə insanlar bağırsaq və mədə xərçəngi kimi xəstəliklərin qarşısını ala bilərlər.

Kələm turşusunda olan “izotiosiyanat”lar xərçəng hüceyrələrinin inkişafını əngəlləməyə yardımçı olur. Xüsusilə, döş, yumurtalıq və prostat xərçənginin qarşısını alır. Eyni zamanda, kələmin tərkibindəki antioksidantlar orqanizmdəki bakteriyalarla mübarizə aparır.

Kələm B6 vitamini ilə zəngindir. Bu vitamin beynin funksiyalarını qoruyur. Kələm turşusunda ağrını azaldan üzvi komponentlər var. Mütəmadi istehlak edildiyi zaman bədəninizin hər hansı yerində ağrı əmələ gəlməsinin qarşısını alır.

## Ağdaş sakinindən 15 kq narkotik götürülüb

Ağdaş sakinindən 15 kiloqram narkotik götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Nəqliyyatda Baş Polis İdarəsinin əməkdaşları tərəfindən Mingəçevir şəhərinin ərazisində Ağdaş rayon sakini İman Zamanovdan 15 kiloqram marixuana götürülüb.

## “Borussiya” Roysla yeni müqavilə imzalamaq istəyir



Dortmundun “Borussiya” futbol klubu yarımmüdafiəçisi Marko Roysu komandada saxlamaq fikrindədir. AZƏRTAC xəbər verir ki, ötən həftə tərəflər arasında müqavilənin uzadılması barədə aparılan danışıqlarda “Borussi-ya”nın rəhbərliyi qəti niyyətdə olduğunu bildirib.

Roys isə özünün gələcəyinə əmin deyil. Onun müqaviləsi 2019-cu ildə bitir və 28 yaşlı almaniyalı başa düşür ki, növbəti müqavilə onun karyerasında sonuncu böyük müqavilə ola bilər. Roys “Borussiya”da qalmağa razıdır, lakin mükafatlar uğrunda mübarizə də aparmaq fikrindədir. O, bunun zəmanətini hələ ki, klubdan görmür. Ehtimal var ki, Roysun gələcəyi yalnız dünya çempionatından sonra həll olunacaq.

## “Yuventus”dan Emre Cana transfer xəbərdarlığı!




“Yuventus” “Liverpul”un yarımmüdafiəçisi Emre Canı transfer etmək fikrindən daşına bilər. Qol.az-ın “La Gazetta dello Sport”a istinadən yaydığı məlumata görə, buna səbəb türk əsilli futbolçunun gələcək karyerası ilə bağlı yekun qərar verməməsidir. Turin klubu ilə danışıq aparan Almaniya millisinin üzvü eyni zamanda “Liverpul”la mövsümün sonunda başa çatacaq müqaviləsinin müddətini uzada biləcəyini söyləyib.

Canın bu açıqlamasından sonra “Yuventus” rəsmiləri ona son xəbərdarlıqlarını ediblər. Əgər yarımmüdafiəçi bu həftə qəti qərar verməsə, onunla danışıqlar birdəfəlik dayandırılacaq.

## Taekvondo üzrə “Sofia Open” turnirində ölkəmizi altı idmançı təmsil edəcək




Bolqarıstanın paytaxtı Sofiyada taekvondo üzrə növbəti beynəlxalq turnir keçiriləcək. Azərbaycan Taekvondo Federasiyasının saytında yer alan xəbərə görə, “G-1” kateqoriyalı turnirdə iştirak etmək məqsədi ilə Bolqarıstana yollanan gənclərdən ibarət milli komandamız altı idmançı ilə təmsil olunacaq.

Baş məşqçi Məmməd Abdullayev və böyük məşqçi Zahid Məmmədov “Sofia Open” turnirində gənc idmançılardan Bəhruz Quluzadə (48 kq), Xanoğlan Kərimov (51 kq), Ayaz Qənbərli (55 kq) və Cavad Ağayevi (63 kq) sınaqdan keçirəcək. Qızlardan isə Minayə Əkbərova (44 kq) və Sevda Pirseyidova (49 kq) medallar uğrunda mübarizə aparacaqlar. Qeyd edək ki, yarış martın 3-4-də baş tutacaq və qalib olan idmançı reytinqinə 10 xal əlavə edəcək.

## “Atletiko Madrid” Tomas Partinin müqaviləsini yeniləyib




“Atletiko Madrid” qanalı yarımmüdafiəçi Tomas Partinin müqaviləsini yeniləyib. SİA-nın məlumatına görə, 24 yaşlı futbolçunun yeni anlaşması 2020-ci il 30 iyuna kimi nəzərdə tutulub. Parti Madrid klubunun akademiyasına 2011-ci ildə gəlib. 2013-cü ildən əsas komanda ilə məşqlərə qatılan yarımmüdafiəçi 2015-ci ildən əsas heyətə düşməyə başlayıb. Onun əsas komandada debüt oyunu “Espanyol”la qarşılaşmaya təsadüf edir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**